# RUSİYA SƏFİRİ XİN-Ə ÇAĞIRILDI

Kiyevə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən biri Azərbaycan səfirliyinin ərazisinə düşüb.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov XİN-ə çağırılıb. Görüş zamanı, noyabrın 14-də təqribən gecə saat 1:00-da Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən birinin səfirliyin ərazisinə düşməsi ilə bağlı kəskin etiraz bildirilib və ona müvafiq nota təqdim edilib.

SƏHİFƏ 2-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

15 NOYABR ŞƏNBƏ 2025 № 44 (4245)

Qiyməti - 60 qəpik

www.kaspi.az



## İQTİSADİ COĞRAFİYANI DƏYİŞƏN LAYİHƏ

Zəngəzur dəhlizi Avrasiyanın iqtisadi coğrafiyasında mühüm yenilik, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini birləşdirən strateji körpüdür. Dəhliz həmçinin Türk dünyasının coğrafi bütövlüyünü təmin edir.

SƏHİFƏ 4-də



## TƏHSİLƏ AYRILAN MALİYYƏ YETƏRLİDİRMİ?

Gələn ilin dövlət büdcəsində təhsil xərcləri qismən də olsa artırılacaq. Ekspertlər bu vəsaitin daha çox rəqəmsal təhsil mühitinin genişləndirilməsinə, peşə təhsilinə və elmə yönəldilməsini təklif edirlər.

SƏHİFƏ 12-də



## DƏLƏDUZLARIN ONLAYN KART ALVERİ

Dələduzlar ayrı-ayrı vətəndaşlara ödənişlər edərək onların adına olan bank kartlarını alırlar. Sonradan bu kartlardan onlayn qumar oyunlarında istifadə edilir. Bu isə kart sahibi olan vətəndaşları məsuliyyət qarşısında qoyur.

SƏHİFƏ 7-də

### PREZİDENTDƏN TƏLƏBLƏRƏ ƏMƏL ETMƏYƏN MƏMURLARA XƏBƏRDARLIQ

# TƏVAZÖKARLIQ, ƏDALƏT, MƏSULİYYƏT



İlham Əliyev Naxçıvandakı səlahiyyətli nümayəndəsini və rayonların yeni təyin olunmuş başçılarını qəbul edərkən yüksək vəzifələrə təyin olunan kadrlardan nələrin tələb olunduğunu açıq şəkildə dilə gətirib.

**MƏMURLAR TƏVAZÖKAR OLMALIDIRLAR**

"Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın".

**QANUNSUZ TAPŞIRIQLAR VERİLMƏYƏCƏK**

Prezident qoyulan tələblərin yerinə yetirilməsi üçün heç bir əngəlin olmadığını xüsusi qeyd edib: "Sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək".

SƏHİFƏ 3-də

### "Ansambl ianələr, maliyyə dəstəyi gözləyir"

# "ƏNƏNƏLƏRİMİZİ YAŞATMAĞA ÇALIŞIRIQ"



Təbriz Azərbaycanlıları Musiqi və Rəqs Ansamblı Kanada hökuməti tərəfindən qeydiyyatdan keçib. Azərbaycan musiqi mədəniyyətini yaşatmaq, klassik əsərləri səhnələşdirməklə böyük bir auditoriya toplayıb. Ansamblın yaradıcı direktoru Şervin Şadpur ansamblın hazırkı fəaliyyəti və gələcək planlarını bölüşdü: "Əsas tamaşaçılarımız Kanadada yaşayan azərbaycanlılardır. Farslar, türklər, başqa millətlərin nümayəndələri konsertlərimizə gəlirlər. Yerli kanadalılar da zalda görürük".

SƏHİFƏ 15-də



## TÜRKİYƏ ŞƏHİDLƏRİ İLƏ VİDALAŞDI

Türkiyənin Gürcüstanda qəzaya uğrayan yük təyyarəsində şəhid olan 20 hərbçi ilə Ankarada vida mərasimi keçirilib. Mərasimdə Türkiyə Milli Müdafiə Nazirliyinin rəsmiləri, şəhid hərbçilərin yaxınları iştirak ediblər.

SƏHİFƏ 2-də



## İXRACDA BİR MİLYARDLIQ HƏDƏF

Meyvə-tərəvəz ixracının artırılması üçün logistika, soyuducu infrastruktur, keyfiyyət standartları vacib amillərdir. Mövcud dinamika davam edərsə, yaxın illərdə meyvə-tərəvəz ixracının həcmi bir milyard dollara çatdırıla bilər.

SƏHİFƏ 6-da



## ÇİN AVTOMOBİLLƏRİ "Aİ-95"İ DƏ "VURUR"

Pərakəndə satışda "Aİ-92" markalı benzininə olan tələbat "Aİ-95" markalı benzinlə müqayisədə xeyli yüksəkdir. "Aİ-95" baha olduğuna görə sürücülərin böyük hissəsi daha ucuz yanacaq növünə üstünlük verir.

SƏHİFƏ 13-də



**SOCAR-ın kredit reytinqi yüksəldilib**

SƏHİFƏ 10-da



**Yapon "Dəmir ledi" Çinə qarşı**

SƏHİFƏ 5-də



**Bahalı səfər, artıq xərc**

SƏHİFƏ 9-da



**Ət bazarında böhran dərinləşir**

SƏHİFƏ 14-də



**Cüdoçularımızın Ər-Riyad zəfəri**

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Türkiyə şəhidləri ilə vidalaşdı

Türkiyənin Gürcüstanda qəzaya uğrayan yük təyyarəsində şəhid olan 20 hərbçi ilə Ankarada vida mərasimi keçirilib. Mürted Hava Bazası Komandanlığında keçirilən vida mərasimində Türkiyə Milli Müdafiə Nazirliyinin rəsmiləri, şəhid hərbçilərin yaxınları iştirak ediblər. Vida mərasiminin ardınca cənazələr hərbçilərin doğulduğu bölgələrə göndərilib.

Qeyd edək ki, noyabrın 11-də Gürcüstan ərazisində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus "C130" tipli hərbi təyyarə qəzaya uğrayıb. Təyyarənin qalıqları Xolaqiri monastırının yaxınlığındakı dik yamaclara səpələnib və yerli sakinlər tərəfindən aşkar edilib. Hadisə nəticəsində göyərtədə olan 20 Türkiyə hərbçisi şəhid olub.

Təyyarə qəzası baş verdiyi andan Azərbaycan tərəfi ən yüksək səviyyədə qardaş ölkəyə öz yardımlarını təklif edib. Prezident İlham Əliyevin tapşırığına əsasən hadisənin təfərrüatının araşdırılması ilə bağlı həm Gürcüstan, həm də Türkiyə ilə sıx təmaslar qurulub.

Hadisənin baş vermə səbəbləri hələlik bilinməsə də, bir sıra ehtimallar irəli sürülüb. Türkiyənin "Haber Global" telekanalının reportajında bildirilib ki, təyyarə uzun müddətdir xidmətdə olub və sonuncu dəfə 2020-ci ildə əsaslı təmir edilib. İlkin ehtimala görə, təyyarənin gövdəsində korroziya, yəni paslanma nəticəsində deşilmə baş verə bilərdi. Nəticədə bu hal, qəzaya səbəb ola bilər. "Digər ehtimal - yüklər lazımi qaydada bərkidilmədiyi üçün uçuş zamanı yer dəyişmə baş verə bilərdi. Bu halda, tərpənən yük gövdənin daxili səthlərinə çırpılaraq onun zədələnməsinə səbəb olub", - deyə reportajda vurğulanıb.

Telekanalın xəbər direktoru Özgür Feyiz bəyan edib ki, təyyarə qəzasına səbəblərdən biri də hava gəmisinin pərlərinin qopması ola bilər. O, belə hadisələrin "C-130" təyyarələri üçün qeyri-adi olmadığını bildirib. Onun sözlərinə görə, bundan əvvəl təxminən 40-50 qəzada pərvanələrin qopması qeydə alınıb.

Qeyd edək ki, Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus "C130" tipli hərbi nəqliyyat təyyarəsinin hissələri Kayseri vilayətinə aparılacaq. Hazırda hadisə yerində müvafiq qurumların əməkdaşları geniş araşdırma aparır.

Artıq qardaş ölkədə "C-130" təyyarələrinin uçuşu dayandırılıb. Bildirilib ki, bu qərar noyabrın 11-də Gürcüstan-Azərbaycan sərhədindəki qəzadan sonra ehtiyat tədbiri olaraq qəbul edilib.




Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən biri Azərbaycan səfirliyinin ərazisinə düşüb. Bununla bağlı Rusiya səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və ona müvafiq nota təqdim edilib.

# RUSİYA SƏFİRİ XİN-Ə ÇAĞIRILDI

F.ABASOĞLU

Noyabrın 14-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb. Bildirilib ki, Volodimir Zelenski Rusiyanın raket zərbəsi nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin inzibati binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını qınayıb və bu hadisə ilə bağlı ciddi narahatlığını bildirib.

### BU CÜR HÜCUMLAR QƏBULEDİLMƏZDİR

Dövlətimizin başçısı da öz növbəsində ölkəmizin Ukraynadakı səfirliyinin binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını pisləyib və bununla əlaqədar ciddi narahatlığını ifadə edib, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən, diplomatik nümayəndəliklərə qarşı bu cür hücumların qəbuledilməz olduğunu vurğulayıb.

Telefon söhbəti zamanı Volodimir Zelenski ölkəmizin Ukraynaya humanitar dəstəyinə görə təşəkkürünü bildirib. Dövlət başçıları, həmçinin ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıblar.



## RUSİYA SƏFİRİNƏ NOTA TƏQDİM EDİLİB

Bu arada, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb və ona nota təqdim olunub. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüş zamanı, noyabrın 14-də təqribən gecə saat 1:00-da Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən birinin səfirliyin ərazisinə düşməsi ilə bağlı kəskin etiraz bildirilib və ona müvafiq nota təqdim edilib.

Son partlayış nəticəsində səfirliyin ərazisinin hasarının bir hissəsinin tamamilə dağıldığı, konstruksiyaların, xidməti avtomobillərin, inzibati binanın və səfirliyin konsulluq şöbəsinin zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan vurulduğu, xoşbəxtlikdən bu zərbənin insan itkisinə səbəb olmadığı qarşı tərəfə bildirilib.

## RAKET HÜCUMLARI ƏVVƏLLƏR DƏ BAŞ VERİB

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu kimi raket hücumlarının əvvəllər də baş verdiyi xatırlanıb. Xüsusilə, 2022-ci il 10 mart tarixində Azərbaycan Respublikasının Xarkov şəhərindəki Fəxri Konsulluğunun binasına aviazərbə nəticəsində inzibati binanın ciddi dağıntılara məruz qaldığı və xidməti avtomobilin yararsız hala düşdüyü qeyd edilib.

Bununla yanaşı, 2024-cü il yanvarın 2-də Rusiya tərəfindən "Kinjal" raketi ilə həyata keçirilən hava zərbəsi nəticəsində səfirliyin inzibati binasından təqribən 35 addım məsafədə diametri təxminən 3 metr olan krater yarandığı və yer səthindən 8 metr dərinlikdə detonasiya baş vermədiyi üçün partlamamış sursat aşkar edildiyi bildirilib.

2025-ci il avqustun 28-də isə Azərbaycanın Ukraynadakı səfirliyinə təxminən 50 metr məsafədə endirilmiş hava zərbəsi nəticəsində səfirliyin inzibati binasının və konsulluq şöbəsinin, səfirin rezidensiyasının zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan dəydiyi diqqətə çatdırılıb.

Eyni zamanda, 8 və 18 avqust 2025-ci il tarixlərində Odessa vilayətində SOCAR şirkətinin neft bazasına dron hücumları edildiyi, nəticədə işçilərin xəsarət aldığı infrastruktura böyük zərər vurulduğu xatırlanıb.

### FAKTLARIN YARATDIĞI AÇIQ SUAL

Bütün bu faktların, raket hücumlarının məqsədli olması barədə suallar yaratdığı vurğulanıb. Eyni zamanda, bütün bu faktlara dair Rusiya tərəfinə əvvəllər rəsmi notalarla məlumat verildiyi, həmçinin Ukraynadakı diplomatik təmsilçiliklərimizin yerləşdiyi binaların koordinatlarının hələ 2022-ci ilin aprel ayında Rusiya tərəfinə təqdim edildiyi, koordinatların Rusiya Müdafiə Nazirliyi tərəfindən nəzərə alınacağının bildirildiyi xatırlanıb.

Görüşdə, diplomatik təmsilçiliklərimizə bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb, Rusiya tərəfindən məsələ üzrə müvafiq araşdırma aparılması və ətraflı izahat verilməsi tələb olunub.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# TƏVAZÖKARLIQ, ƏDALƏT, MƏSULİYYƏT

Prezident İlham Əliyev Naxçıvandakı səlahiyyətli nümayəndəsini və rayonların yeni təyin olunmuş başçılarını qəbul edərkən idarəetmədə yüksək vəzifələrə təyin olunan kadrlardan nələrin tələb olunduğunu açıq şəkildə dilə gətirib. O, qoyulan tələbləri pozan məmurlara xəbərdarlıq da edib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Bu gün ölkə rəhbərliyinin bölgələr də daxil, idarəetmədə yüksək vəzifələrə təyin olunan kadrlardan əsas tələbi vətəndaş məmnunluğunun ən yüksək səviyyədə təminidir. Bunun üçün isə idarəetmədə məmur davranışı, etik mədəniyyət və sosial məsuliyyət kimi mühüm məqamlara xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin 12 noyabr 2025-ci ildə Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunmuş başçılarını qəbul edərkən səsləndirdiyi fikirlər də məhz bu məqamlar üzərində ölkə rəhbərinin təyin edilən kadrlardan tələblərinə dair mühüm mesajları ilə yadda qaldı.

### "HƏR BİR MƏMUR TƏVAZÖKAR OLMALIDIR"

Qeyd edək ki, son illərdə Azərbaycanda ciddi idarəetmə və kadr islahatları həyata keçirilib. Lakin bu islahatlar tək institusional mahiyyət daşımır. Həm də yeni dəyərlər və müasir yanaşmaların sintezini özündə birləşdirir. Bu baxımdan Prezident İlham Əliyevin görüşdə səsləndirdiyi tələblər xüsusi vurğulanmalıdır: "Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar".

Göründüyü kimi, artıq məmur adını daşıyanların davranışları tək bir şəxsin hərəkətləri anlamına gəlmir, bütün idarəetmə sisteminin tərkib hissəsi kimi dəyərləndirilir.

### "ƏKS TƏQDİRDƏ, LAZIMİ ÖLÇÜLƏR GÖTÜRÜLƏCƏK"

Prezident qoyulan tələbləri və meyarları pozan məmurlara xəbərdarlıq da etdi: "Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımı ölçülər götürüləcəkdir".

Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən məmurlara əvvəllər də xəbərdarlıqlar edilib. Bu xəbərdarlıqlarda vurğulanan prinsiplərdən kənar davrananlar isə qanun çərçivəsində əməllərinə görə cavab verməli olublar.

## DÖVLƏT ÜZƏRİNƏ DÜŞƏNİ EDİR

Bu gün bölgələrin inkişafı, işsizlik probleminin aradan qaldırılması, infrastrukturun müasir standartlara uyğunlaşdırılması kimi məqamlar dövlətin ən ali məqsədlərindən biridir. Dövlət bu məsələdə üzərinə düşən bütün vəzifələri icra edib və edir. Prezidentin də qeyd etdiyi kimi, bölgələrimizdə əsas infrastruktur layihələri demək olar ki, başa çatıb. Dövlət xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Bütün şəhərlərdə içməli su layihələri icra edilir. "Yəni, bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır", - deyən Prezident bu məsələlərin dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası nəticəsində həll edildiyini bildirib.

İndi isə bölgələrdəki inkişafın həm də sivil məmur-vətəndaş münasibətlərinin formalaşdırılması ilə bir üst səviyyəyə qaldırılması əsas hədəflərdəndir. Dövlət başçısının da qeyd etdiyi kimi, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapmalıdır, burada da əsas prinsip sosial ədalət olmalıdır: "Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək. Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər". Prezident məmurların qarşısında qoyduğu tələblərin tam olaraq yerinə yetirilməsi istiqamətində artıq heç bir əngəlin olmadığını xüsusi qeyd edir: "Sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək".

Göründüyü kimi, ali rəhbərlik tərəfindən həyata keçirilən uğurlu iqtisadi, sosial və digər siyasi kursların daha effektiv nəticələr verməsi üçün bütün zəruri addımlar atılır. Həm kadr seçimi, həm də yeni idarəetmə fəlsəfəsinin əsasında ilk növbədə insan amili, sosial rifahın təmini, sosial ədalət prinsipinin qorunması dayanır.

# AVRASİYANIN İQTİSADİ COĞRAFİYASINI DƏYİŞƏN LAYİHƏ

Zəngəzur dəhlizi Avrasiyanın iqtisadi coğrafiyasında mühüm yenilikdir, eyni zamanda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini birləşdirən strateji körpüdür. Daha bir önəmli faktor dəhlizin Türk dünyasının coğrafi bütövlüyünü təmin etməsidir.



RASİM MƏZAHİROĞLU

Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı gedişləri məntiqi sonluğuna yaxınlaşmaqdadır. Hələ 10 noyabr tarixli bəyanatda məhz Azərbaycanın təklifi ilə ölkəmizin hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidin təşkil edilməsi kimi həyati əhəmiyyətli bənd yer aldı. Bu, Zəngəzur dəhlizinin ilk toxumu və Ermənistanın rəsmən üzərinə götürdüyü öhdəlik idi. Ancaq sonradan rəsmi İrəvan bu öhdəliyndən imtina etməyə, Zəngəzur dəhlizinin açılmasını hər cür bəhanələrlə ləngitməyə çalışdı.

### AZƏRBAYCAN ERMƏNİSTANIN MÖVQEYİNİN DƏYİŞMƏSİNƏ NAİL OLDU

Azərbaycan Zəngəzur dəhlizini beynəlxalq gündəmin əsas mövzularından birinə çevirdi, dünya miqyasında ona böyük maraq yaratdı. Bu, sözün əsl mənasında Ermənistanın Zəngəzur dəhlizi məsələsində təklənməsinə gətirib çıxardı. Nəticədə İrəvan tədricən mövqeyini dəyişməyə məcbur oldu. Proseslərin bu məcrada inkişafını əvvəldən uğurla proqnozlaşdıran Azərbaycan öz ərazisində Zəngəzur dəhlizinin inşasını dayandırmadı. Elə bu səbəbdəndir ki, Zəngəzur dəhlizinin Azərbaycan hissəsində inşaat prosesləri gələn ilin ikinci yarısında yekunlaşacaq.

### TRIPP-İN ERMƏNİSTAN ƏRAZİSİNDƏN KEÇƏN HİSSƏSİ DƏ TİKİLƏCƏK

Dəhlizlə bağlı yekun qərar cari ilin avqustunda ABŞ-də verildi. Vaşinqtonda Prezident Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanmış birgə bəyannamə ölkəmizin əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) əsasını qoydu. Prosesə ABŞ-nin birbaşa cəlbi Ermənistanı Zəngəzur dəhlizinə daha çox həvəsləndirir. Bunu Ermənistan parlamentində son çıxışında Baş nazir Nikol Paşinyanın səsləndirdiyi fikirlər də təsdiq edir. Paşinyan burada ilk dəfə olaraq TRIPP-in ölkəsinin ərazisindən keçən hissəsinin yol xəritəsini təqdim edib. Onun sözlərinə görə, marşrutla bağlı bütün detallar ilin sonuna qədər kağız üzərində təsvir olunmalıdır və faktiki tikinti gələn il başlayacaq.

## DƏHLİZDƏN QAZ KƏMƏRİ VƏ ELEKTRİK XƏTLƏRİ DƏ KEÇƏCƏK

N.Paşinyan həmçinin TRIPP çərçivəsində avtomobil və dəmir yollarının istismarı ilə bağlı detalları açıqlayıb. Onun sözlərinə görə, sovetlər dönəmində mövcud olan dəmir yolu yenidən işə salınacaq: "Dəmir yolunun haradan keçəcəyini dəqiq deyə bilərəm. Dəmir yolu sovet dövründə mövcud olan dəmir yolunun marşrutu ilə keçəcək. Çünki başqa yerdə dəmir yolunun çəkilməsi real deyil". O, avtomobil yollarının keçəcəyi ərazilərin də müəyyənləşdirildiyini bildirib. Azərbaycanın perspektivdə Zəngəzur dəhlizi üzərindən təbii qaz və elektrik enerjisi ixrac etməklə bağlı planları da Ermənistanın bu marşrutla bağlı mövqeyinin ölkəmizin istədiyi məcrada dəyişməsinə ciddi təsir edir. Ermənistan Baş nazirinin müavini Mher Qriqoryan isə qeyd edib ki, TRIPP layihəsinin keçdiyi ərazilərdə Ermənistan-Azərbaycan sərhədinin daha tez müəyyən olunması istisna deyil.

### VAŞİNQTON SAMMİTİNDƏ TRIPP VURĞUSU

TRIPP-in Ermənistandan keçən hissəsinin inşası ilə bağlı artıq ABŞ bu ölkədə müvafiq qiymətləndirmələr aparır. Ümumiyyətlə, indiki ABŞ administrasiyası TRIPP-in mümkün qədər tez reallaşmasında maraqlıdır. Bu mənada təsadüfi deyil ki, Vaşinqtonda ABŞ Prezidenti ilə Mərkəzi Asiya dövlətlərinin liderlərinin C5+1 formatı çərçivəsində baş tutan görüşündə TRIPP diqqət mərkəzində yer aldı. C5+1 formatı ölkələri Orta Dəhlizin potensialının tam açılması və onun TRIPP ilə inteqrasiyası hesabına qarşılıqlı əlaqələri və təchizat zəncirlərinin dayanıqlığını gücləndirmək barədə razılığa gəliblər. Bu da o deməkdir ki, perspektivdə TRIPP Mərkəzi Asiya ölkələrinin idxal-ixrac əməliyyatlarında həlledici rol oynayacaq.



## "ZƏNGƏZUR DƏHLİZİ BÜTÜN MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNƏ FAYDA GƏTİRƏCƏK"

Qeyd edək ki, TRIPP layihəsi həm də Mərkəzi Asiya ölkələrinin dünyaya çıxışı üçün mühüm istiqamət sayılır. Bu məsələ ümumilikdə Orta Dəhlizin tərkib hissəsi kimi dəyərləndirilməklə xüsusi diqqət cəlb edir. Bu günlərdə Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində Zəngəzur dəhlizi və ümumilikdə Azərbaycan-Mərkəzi Asiya tranzit əməkdaşlığından da danışıb. Dövlət başçısı qeyd edib ki, Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir: "Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir. 2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir. Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək".

Bu dəhliz ümumiyyətlə, Avrasiyanın iqtisadi coğrafiyasında mühüm yenilikdir, eyni zamanda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini birləşdirən strateji körpüdür. Daha bir önəmli faktor Zəngəzur dəhlizinin türk dünyasının coğrafi bütövlüyünü təmin etməsidir. O, həm də Avrasiyada enerji və kommunikasiya xətlərinin inteqrasiyası üçün yeni imkanların yaradılması deməkdir.

# YAPON "DƏMİR LEDİ" ÇİNƏ QARŞI

Çinin ayrılmaz tərkib hissəsi olan Tayvan yenidən bölgə dövlətləri arasında gərginliyə yol açıb. Bu dəfə Tokio ilə Pekin arasında siyasi qalmaqal yaşanır. Həmişə olduğu kimi, ABŞ bu məsələdə müttəfiqi Yaponiyanın tərəfini tutmaqdadır.



AZƏR NURİYEV



Çin-Yaponiya münasibətlərdə yeni gərginlik yaşanır. Gündoğar ölkənin yeni xanım Baş naziri Sanae Takaiçi Çinin Tayvana qarşı güc tətbiq etməsinin Tokio tərəfindən "ekzistensial təhdid" kimi qiymətləndiriləcəyi və ölkəni ada ətrafında öz müdafiə qüvvələrini yerləşdirməyə məcbur edəcəyini deyib. Çin də bunu cavabsız qoymayıb. Osakadakı baş konsulu Xue Jianın dili ilə ona cavab verilib. Lakin çox sərt formada. Cavabında Yaponiya Nazirlər Kabinetinin baş katibi Minoru Kihara Çin baş konsulunun yazısını "son dərəcə yersiz" adlandırıb və onun silinməsini tələb edib. O qeyd edib ki, Xue keçmişdə də çoxsaylı təxribatçı bəyanatlar verib və Çini məmura qarşı intizam tədbirləri görməyə çağırıb. Yaponların hiddətini ABŞ-nin Tokiodakı səfiri Corc Qlass da dəstəkləyib. Çinli diplomatın şərhini "təhdidedici" adlandıran Qlass, "X" platformasında Xue Jianın artıq silinmiş postunun ekran görüntüsünü paylaşıb.

### ÇİNƏ QARŞI SON DƏRƏCƏ SƏRT MÖVQE

Qeyd edək ki, Baş nazir Sanae Takaiçi Çinə qarşı son dərəcə sərt mövqeyi ilə seçilir. Digər yapon mühafizəkarları kimi, xanım Takaiçi də İkinci Dünya müharibəsi zamanı Yaponiyanın vəhşiliklərinin şişirdildiyini iddia edir. O, müntəzəm olaraq Tokioda, hər dəfə Çin və Cənubi Koreyada mübahisələrə səbəb olan müharibə qurbanlarının xatirəsinə ucaldılmış Yasukuni Məbədini ziyarət edir. Seçki qələbəsindən sonra isə Yasukunini "müharibə qurbanları üçün istirahət yeri və sülh ziyarətgahı" adlandırıb. Düzdür, oktyabrın sonunda Cənubi Koreyadakı sammitdə Sanae Takaiçi ÇXR sədri Si Cinpinlə qısa görüş keçirib. Bu görüşdə o, Çinlə münasibətlərdə tonu yumşaltmağa çalışıb. Həmin sammitin çərçivəsində Baş nazir Tayvan nümayəndəsi ilə də görüşüb ki, bu da Pekində mənfi reaksiyaya səbəb olub.

Bugünlərdə isə Takaiçi Tayvanın müdafiəsi ilə bağlı öz bəyanatlarının tonunu bir qədər yumşaltmağa çalışıb.

## Tayvan - Çinin ayrılmaz ərazisi

Çinin dövlət qeydlərində ada eramızın 239-cu ilində - Çin imperatoru ərazini tədqiq etmək üçün ekspedisiya göndərəndə aşkar edilib. Pekin Tayvana sahiblik hüququnu də bu faktla əsaslandırır. Nisbətən qısa müddət ərzində - 1624-cü ildən 1661-ci ilə qədər Tayvan Niderlandın müstəmləkəsi olub, 1683-cü ildən 1895-ci ilə qədərsə Çinin Tsin sülaləsinin nəzarətinə keçib. 1895-ci ildə - birinci Çin-yapon müharibəsindən sonra Tsin hökuməti Tayvanı Yaponiyaya güzəştə getməli olub. İkinci Dünya müharibəsinin nəticələrinə görə isə Yaponiya bu ərazidən imtina edib. Müharibədə qalib dövlətlərdən biri olan Çin Respublikası müttəfiqləri ABŞ və Böyük Britaniyanın razılığıyla Tayvanı idarə etməyə başlayıb.

### TAYVANDA ÇAN KAYŞİ DÖNƏMİ

Amma sonra Çan Kayşinin rəhbərlik etdiyi Qomindan Partiyasının hökumətiylə Mao Tszedunun başçılıq etdiyi Çin Kommunist Partiyasının qoşunları arasında vətəndaş müharibəsi başlayıb və Qomindan məğlub olub. 1949-cu ildə Çan Kayşi öz tərəfdarlarıyla birlikdə (təxminən 1,5 milyon nəfər) Tayvana qaçıb. Orada sürgün hökuməti qurub, tabeçiliyindəki əraziyə Çin Respublikası adını verib və 25 il ona rəhbərlik edib. Adaya Çan Kayşiylə birlikdə gəlmiş çinlilər əhalinin cəmi 14 faizini təşkil etsələr də, uzun illər Tayvan siyasətində dominant mövqeyə sahib olublar. Kayşidən sonra hakimiyyətə onun oğlu - Nikolay Vladimiroviç Yelizarov kimi də tanınan Tszyan Tszinqo gəlib. O, 1978-ci ildə prezident olub, vəfat etdiyi 1988-ci ilə qədər bu posta ard-arda iki dəfə seçilib. Hökumət mahiyyətcə avtoritar olaraq qalsa da, onun dövründə Tayvanda demokratik islahatlar həyata keçirilib. Tszinqodan sonra hakimiyyətə onun dövründə vitse-prezident olmuş Li Denhuey gəlib. Bu şəxsi "Tayvan demokratiyasının atası" adlandırırlar.



## "Bir ölkə, iki sistem"

Bir vaxtlar adada sürgün hökuməti qurmuş Çan Kayşi bu hökumətin bütün Çini təmsil etdiyini və ölkəni geri almaq niyyətində olduğunu bildirmişdi. Hətta o vaxt Çini BMT Təhlükəsizlik Şurasında Tayvan təmsil edirdi. Amma 1971-ci ildə BMT Təhlükəsizlik Şurasındakı təmsilçiliyi Pekinə qaytarıldı. ABŞ 1979-cu ildə Pekinlə diplomatik əlaqələr qurdu. Sonrakı illərdə Tayvanı rəsmən tanıyan ölkələrin sayı kəskin şəkildə azaldı, hazırda cəmi 15 belə ölkə var. 1980-ci ildə Çin və Tayvan arasında münasibətlər yaxşılaşmağa başladı. 1991-ci ildə Çin Xalq Respublikası ilə müharibənin bitdiyini elan etdi.

Çin isə "bir ölkə, iki sistem" variantını təklif etdi. Pekin vəd etdi ki, Tayvan yenidən birləşməyə razılıq verərsə, muxtariyyəti saxlanacaq. 1997-ci ildə eyni vədlərlə Pekin Honkonqu da geri qaytarmışdı. Tayvan həmin təklifi rədd etmişdi. Pekin və Taypey prinsipial siyasi məsələdə razılığa gələ bilməsə də, son onilliklərdə iqtisadi əlaqələri genişləndiriblər. Taypeyin rəsmi məlumatlarına görə, 1991-ci ildən 2024-cü ilin sonuna qədər Tayvanın Çinə investisiyası 200 milyard dollara çatıb.

### AĞ EVİN YANAŞMASI

İkinci Dünya müharibəsindən bəri Asiya-Sakit Okean hövzəsində müntəzəm şəkildə varlığını göstərən ABŞ donanması Çinin son illərdə regionun dominant iqtisadi və hərbi gücünə çevrilməsiylə daha da aktivləşib. Hazırda ABŞ Tayvanın müdafiəsinin ən böyük dəstəkçisi kimi çıxış etməkdədir.

Sözsüz ki, Çinin geosiyasi ambisiyalarının artması fonunda ABŞ-nin da regionda dayaqlarını möhkəmləndirmək cəhdləri Asiya-Sakit Okean regionunu dünyanın ən qaynar nöqtələrindən birinə çevrilməsinə zəmin yaradır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

AQRAR MƏHSULLARIN İXRACI ÜÇÜN ALTERNATİV BAZARLARIN TAPILMASI ƏSAS ŞƏRTDİR

# İXRACDA BİR MİLYARDLIQ HƏDƏF

Meyvə-tərəvəz ixracının artırılması üçün logistika, soyuducu infrastruktur, keyfiyyət standartları və kənd təsərrüfatında olan problemlər həll edilməlidir. Mövcud dinamika davam edərsə, yaxın illərdə Azərbaycanın meyvə-tərəvəz ixracının həcmi bir milyard dollara çatdırıla bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2025-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycandan 602 milyon 531 min ABŞ dolları dəyərində 574.3 min ton meyvə-tərəvəz ixrac edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 31.4 faiz və ya 143.7 milyon dollar, həcmi isə 30.8 faiz və ya 135.2 min ton artım deməkdir. 2024-cü ilin ilk doqquz ayında Azərbaycan 458.8 milyon ABŞ dolları dəyərində 439.2 min ton meyvə-tərəvəz ixrac edib.

Qeyd edək ki, hesabat dövründə əsas ixrac olunan meyvə-tərəvəz məhsulları 157.2 milyon dollar dəyərində pomidor (144 min ton), 100.4 milyon dollar dəyərində meşə fındığı (13.5 min ton), 50.2 milyon dollar dəyərində alma (71.4 min ton ), 34.1 milyon dollar dəyərində xurma (47.7 min ton), 28.2 milyon dollar dəyərində kartof (70.9 min ton), 7.2 milyon dollar dəyərində nar (8 min ton) olub.

Maraqlıdır, ümumilikdə Azərbaycanın meyvə-tərəvəz ixracında potensialı necədir? Yaxın gələcəkdə ixracı bir milyarda çatdırmaq mümkündürmü?

### "UZUNMÜDDƏTLİ PERSPEKTİV AVROPA BAZARIDIR"

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisad üzrə fəlsəfə doktoru Ruslan Atakişiyevin sözlərinə görə, Azərbaycanın qeyri-neft ixracında kənd təsərrüfatı məhsulları, xüsusən də meyvə-tərəvəz mühüm yer tutur: "Meyvə-tərəvəzdə ənənəvi bazarımız Rusiyadır. Rusiyaya ixracın artmasının səbəbi Qərbin tətbiq etdiyi sanksiyalardır. O cümlədən Azərbaycan məhsullarının ixracı Körfəz ölkələrinə - Bəhreyn, Birləşmiş Ərəb Əmirliyi, Səudiyyə Ərəbistanı, Oman kimi ölkələrə də həyata keçirilir. Gələcək üçün uzunmüddətli perspektiv Avropa bazarıdır. Oraya da məhsul ixracının artırılması planlaşdırılır. Sadəcə, Avropa bazarına ixrac üçün tələblər çoxdur. Bir sıra standartlar var ki, onlara riayət olunmalıdır. Bu da sahibkarlar üçün çətin olduğundan marağı aşağı salır".

R.Atakişiyev bildirdi ki, son dövrlərdə hökumət tərəfindən də ixracla bağlı mühüm işlər görülür: "İxrac olunan məhsulun üç və altı faizi dəyərində vəsait sahibkara qaytarılır. İxracın təşviqi sənədi vasitəsilə digər dəstəklər göstərilir. Ümumiyyətlə, ixrac zamanı gömrük rüsumu tətbiq olunmur. Müxtəlif ölkələrdə ticarət məntəqələrimiz var. Həmin yerlərdə kənd təsərrüfatı məhsullarımız satışa çıxarılır. Dövlət tərəfindən subsidiyalaşma həyata keçirilir".

### "BAHALI BAZARLARDA DAHA YAXŞI RƏQABƏT APARA BİLƏRİK"

Sədrin fikrincə, gəlirimizi artırmaq üçün müəyyən işlər görməliyik: "Son dövrlər yaranmış 31 faizlik artım növbəti dövrlərdə o halda mümkün olar ki, bazarlarla ardıcıl işlər aparılsın. Həmin bazarlarda bizim məhsullara tələbat yüksək olsun. Azərbaycan məhsullarının qlobal bazarda rəqabət üstünlüyü böyükdür. Çünki bizim məhsulumuz təbii, orqanikdir. Düzdür, digər məhsullara baxanda bahadır. Amma təbii məhsul olduğu üçün bahalı bazarlarda daha yaxşı rəqabət apara bilərik".

### "ÇİN BAZARINA DAXİL OLMUŞUQ"

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, meyvə-tərəvəz ixracında yeni bazarlara çıxış əldə edirik: "Meyvə tərəvəzi əsasən Rusiya bazarına, Yaxın Şərqə, Körfəz ölkələrinə ixrac edirdik. Avropa İttifaqı bazarına da satış həyata keçiririk. Çin, Hindistan, Cənubi Amerika və Afrika bazarına çıxış əldə etmək istəyirdik. Baltikyanı ölkələrə də satışlarımızı həyata keçirmək niyyətimiz var idi. Artıq Çin bazarına daxil olmuşuq. Şirkətlərdən biri bu bazara daxil olmaq üçün memorandum imzaladı. Bu ölkə ilə viza rejimi də aradan qaldırıldığından həmin bazara çıxışımız daha da asanlaşıb. Maneələrdən biri də tətbiq edilən kvotalar idi. Kvotalar istədiyimiz qədər məhsul ixrac etməyə mane olurdu".

R.Qarayev logistika problemlərindən də bəhs etdi: "Avropaya çıxış baha başa gəlir. Amma dəmir yolu vasitəsilə çıxış əldə etsək, Zəngəzur dəhlizi ilə Türkiyəyə və oradan gəmi vasitəsilə məhsullarımızı istənilən ölkəyə çatdıra bilərik. Amma bir çox ölkələrə məhsulların tez çatdırılması vacibdir. Bunun üçün soyuducu sistemlər olmalıdır. Bu cəhətdən çatışmazlıq mövcuddur. Meyvə-tərəvəz yetişdirirəmsə, həmin gün də satışını etməliyəm. Bu halda xərclərin qarşısı alına bilər. Amma bu, mümkünsüzdür. Məhsul əksər hallarda məhv olur. Bəzən yolda müəyyən problemlərə, yaxud gömrük keçidi zamanı yubanmalara görə də məhsullar sıradan çıxa bilir".

### "MÖVCUD PROBLEMLƏR ARADAN QALDIRILMALIDIR"

İqtisadçı bildirdi ki, məhsulumuzun keyfiyyətinə üstünlük versək, ixracı daha da artıra bilərik: "Qlobal bazarlarda yerimizi tuta biləcəyik. Amma Azərbaycan məhsullarına rəqib olacaq məhsullar da var. Məsələn, Rusiya bazarında Türkiyə məhsulları ilə rəqabət aparırıq. Rəqabətdə qalib gəlmək üçün məhsullarımız keyfiyyətli olmalıdır. Baxmalıyıq ki, hansı ölkələrdə məhsul yetişməsi baha başa gəlirsə, o məhsulları yetişdirməli və ixrac etməliyik. Yəni ölkələrin bazarlarını təhlil etməliyik. Hansı məhsullara daha çox tələbat varsa, onlara yönəlməliyik. İxracı artırmaq üçün istehsalı da artırmalıyıq. Bunun üçün də kənd təsərrüfatında mövcud olan problemlər aradan qaldırılmalıdır. Subsidiyalar sahibkarlar üçün əlçatan olmalıdır. Meyvə-tərəvəz ixracının artımı üçün bütün bu məsələlər nəzərə alınmalıdır".






Ruslan Atakişiyev

# DƏLƏDUZLARIN ONLAYN KART ALVERİ

Dələduzlar ayrı-ayrı vətəndaşlara ödənişlər edərək onların adına olan bank kartlarını alırlar. Sonradan bu kartlardan onlayn qumar və mərc oyunlarında istifadə edilir. Bu isə kart sahibi olan vətəndaşları məsuliyyət qarşısında qoyur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda kiberpolis onlayn qumar və mərc oyunlarında istifadə olunan bank kartlarının alqı-satqısını həyata keçirən beş dəstəni ifşa edib. Daxil olan əməliyyat məlumatları əsasında müəyyən edilib ki, saxlanılan şəxslər bank kartlarını ayrı-ayrı vətəndaşlara ödənişlər edərək alıblar. Daha sonra həmin kartların böyük əksəriyyəti cinayət əməllərində istifadə edilməsi məqsədi ilə əsasən “Telegram”da ölkə xaricində cinayətkar fəaliyyətlə məşğul olan şəxslərə satılıb. Əməliyyat zamanı saxlanılan şəxslərin əldə etdikləri iki mindən artıq bank kartının cinayətkar fəaliyyətə yönləndirildiyi aşkarlanıb.

Bildirilib ki, əksər hallarda öz kartını dəstə üzvlərinə təqdim edən şəxslər onların hansı məqsədlər üçün istifadə ediləcəyindən xəbərsiz olublar.

Maraqlıdır, cinayətkarlar vətəndaşları necə aldadırlar?

### “SADƏLÖVH İNSANLARI CƏLB EDİRLƏR”

Kibertəhlükəsizlik üzrə ekspert Mehman İsgəndərov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, vətəndaşların maliyyə savadlılığı və kibertəhlükəsizlik bilikləri cinayətkarların hədəfindən qorunmaqda həlledici rol oynayır: “Ən çox rast gəlinən üsul “iş təklifi” adı altında kartın icarəyə götürülməsi və qarşılığında aylıq gəlir vəd edilməsidir. Digər hallarda fırıldaqçılar sosial şəbəkələrdə “kart alıram”, “ödəniş edəcəm” kimi elanlar paylaşaraq sadəlövh insanları cəlb edirlər. Bəzi hallarda isə kart məlumatları saxta hədiyyə və ya transfer vədləri ilə ələ keçirilir. Cinayətkarlar qurbanlara “pul göndərəcəyik, kart məlumatını yaz” kimi mesajlar göndərərək kartın nömrəsini, CVV kodunu və SMS təsdiqlərini əldə edirlər. Daha təkmil hallarda isə cihazlara zərərli proqramlar yüklənir və kart məlumatları avtomatik oğurlanır”.

### MALİYYƏ SABİTLİYİ ÜÇÜN REAL TƏHDİD

Həmsöhbətimiz bildirir ki, cinayətkarların qurbanına çevrilməmək üçün ən vacib qayda bank kartını heç kimə verməmək və məlumatlarını paylaşmamaqdır: “Heç bir qanuni şirkət bank kartı “icarəyə” götürmək və ya “sizin adınızdan əməliyyat aparmaq” istəməz. Kartın təhlükəsizliyini qorumaq üçün bir neçə sadə addım kifayətdir. Kart məlumatlarını paylaşmamaq, onlayn alış-veriş zamanı virtual və ya birdəfəlik kartdan istifadə etmək, əməliyyat bildirişlərini aktivləşdirmək, limitlər müəyyənləşdirmək, şübhəli təkliflərə ehtiyatla yanaşmaq, eləcə də hər hansı şübhəli əməliyyat halında dərhal bank və kiberpolis ilə əlaqə saxlamaqdır”. Mütəxəssis vurğulayır ki, kart alveri sadəcə maliyyə fırıldaqçılığı deyil, həm də milli təhlükəsizlik və maliyyə sabitliyi üçün real təhdiddir.



## “RƏQƏMSAL SAVADI AZ OLANLAR RİSK ALTINDADIR”

Bank eksperti İsmayıl Məmmədov deyir ki, bankların əksəriyyəti müxtəlif maarifləndirmə tədbirləri görür: “SMS və e-mail bildirişləri vasitəsilə “kartınızı başqasına verməyin”, “PIN kodu və CVV məlumatlarını paylaşmayın” kimi xəbərdarlıqlar, rəsmi sayt və sosial şəbəkələrdə kiberfırıldaqçılıqdan qorunmaq üçün maarifləndirici paylaşımlar edilir, mobil bank tətbiqlərində təhlükəsizlik bölmələri yaradılıb. Bununla belə, maarifləndirmə hələ də yetərli səviyyədə deyil, xüsusilə regionlarda yaşayan və rəqəmsal savadı az olan şəxslər risk altındadır”.

### “SİSTEM İNSANIN NİYYƏTİNİ TƏYİN EDƏ BİLMİR”

Ekspert bildirir ki, müştərinin kartını başqasına verməsi bank müqaviləsinin şərtlərinin pozulması deməkdir. Onun sözlərinə görə, kartın istifadəsinə dair müqavilədə adətən “Kart yalnız kart sahibinin istifadəsi üçündür, üçüncü şəxslərə verilməsi və ya etibar edilməsi qadağandır” bəndi olur: “Bu qaydanın pozulması bank müqaviləsinin şərtlərinin pozulması hesab olunur, bank həmin halda zərəri kompensasiya etməyə bilər (məsələn, kartdan icazəsiz pul çıxarılsa, bank məsuliyyət daşımayacaq) və əgər kart cinayətdə istifadə olunarsa, kart sahibi də məsuliyyət daşıya bilər, çünki o, kartı könüllü şəkildə ötürüb”.

İ.Məmmədov qeyd edir ki, bəzi hallarda bankların təhlükəsizlik sistemləri şübhəli əməliyyatları avtomatik müəyyən edə bilir. Banklarda AML (Anti-Money Laundering – pul yuyulmasının qarşısının alınması) və Fraud Monitoring System (dələduzluğa nəzarət sistemi) kimi avtomatlaşdırılmış mexanizmlər fəaliyyət göstərir. Bu sistemlər qeyri-adi əməliyyatları, məsələn, qısa müddətdə çoxsaylı tranzaksiyaları və ya eyni IP ünvanından fərqli kartlarla aparılan əməliyyatları aşkarlayır, riskli əməliyyatları şübhəli kimi işarələyir və onları Daxili Təhlükəsizlik və ya KYC (Know Your Customer – Müştərini tanı) bölməsinə yönləndirir. Bununla belə, sistem insanın niyyətini təyin edə bilmir, yəni kart sahibinin kartını başqasına verib-vermədiyini texniki cəhətdən dəqiq sübut etmək çətindir”.

## KART SAHİBİ CİNAYƏT MƏSULİYYƏTİ DAŞIYIR?



Mehman İsgəndərov

Həmsöhbətimiz vurğulayır ki, öz adında olan bank kartını başqasına vermək bir neçə hüquqi məsuliyyət yarada bilər: “Birincisi, mülki məsuliyyətdir. Əgər kart qanunsuz əməliyyatlarda istifadə olunarsa, bank və ya zərərçəkən tərəf kart sahibinə qarşı mülki iddia qaldıra bilər. İkincisi, cinayət məsuliyyətidir. Əgər kart bilərəkdən cinayət məqsədilə təqdim edilibsə, məsələn, onun qeyri-qanuni ödənişlər və ya qumar əməliyyatları üçün istifadə olunacağını kart sahibi bilirdisə, bu halda Cinayət Məcəlləsinin 193-1 və ya 320-ci maddələri (pul vəsaitlərinin leqallaşdırılması, saxta sənəd və ya hesablardan istifadə) üzrə məsuliyyət yarana bilər. Üçüncüsü isə inzibati məsuliyyətdir. Əgər cinayət niyyəti sübut olunmasa belə, kartdan başqasının istifadəsinə şərait yaratmaq bəzi hallarda inzibati xəta kimi qiymətləndirilə bilər”.

Ekspertin fikrincə, bu kimi hallarda qanunvericiliyin sərtləşdirilməsinə müəyyən dərəcədə ehtiyac var. Hazırda Azərbaycan qanunvericiliyində bank kartlarının bilərəkdən üçüncü şəxslərə verilməsi ilə bağlı xüsusi məsuliyyət norması mövcud deyil. Halbuki bir çox Avropa ölkələrində “maliyyə vasitələrinin bilərəkdən üçüncü şəxsə verilməsi” ayrıca inzibati və ya cinayət məsuliyyəti yaradır.



İsmayıl Məmmədov

# KÖHNƏ TƏSƏRRÜFATLAR DİRÇƏLƏCƏK?

**Bəzi balıqartırma müəssisələri Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilib. Ekspertlər qərarı 2024-cü il 19 dekabr tarixində qəbul edilən fərmanla əlaqələndirirlər. Onlar yeni qərarın balıqçılıq və adıçəkilən təsərrüfatlar üçün uğurlu olacağı fikrindədirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Azərbaycan Təcrübəvi Dəniz Balıqartırma Zavodu, Çaykənd Qızılbalıqartırma Zavodu, Kiçik Qızılağac Balıqartırma Təsərrüfatı, Tovuz Balıqartırma Təsərrüfatı və "Xıllı balıq" Məhdud Məsuliyyətli Cəmiyyəti ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilib. Bu müəssisələrin Kənd Təsərrüfatı Nazirliyinə verilməsində məqsəd nədir? Yeni qərar balıqçılıq sahəsində nəyi dəyişəcək?

Xatırladaq ki, Prezident İlham Əliyev bir müddət əvvəl balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı fərman imzalayıb. Fərmanın əsas bəndlərindən biri – Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs yaradılması olub.

### "NƏ İSTEHSAL HƏCMİNƏ, NƏ DƏ İSTEHLAKÇIYA TƏSİR EDƏCƏK"

Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyasının sədri Zaur Salmanlının sözlərinə görə, yeni qərar 2024-cü ildə imzalanan fərmanla əlaqədardır. Lakin 5 müəssisədə vəziyyət heç də ürəkaçan deyil: "Adıçəkilən müəssisələrdə son 6-7 il ərzində heç bir ciddi təmir və bərpa işləri olmadığından köhnə təsərrüfatlardır. Köhnə olduqları üçün də istifadə olunması mümkün olmayan haldadır. Adı var, özü yox da deyə bilərik. Qismən istifadə olunan "Xıllı balıq" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Amma orada da istehsal azalır".

Z.Salmanlı adı çəkilən müəssisələrin fəaliyyət məqsədlərindən də bəhs etdi: "Həmin müəssisələrin məqsədi əmtəə məhsulu istehsalı olmayıb. Onların varlığındakı məqsəd körpə balıqların yetişdirilməsi və Xəzərin endemik növlərinin qorunub saxlanması, təbii su hövzələrində populyasiyanın sənaye səviyyəsinə qaldırılmasına xidmət etməkdir. O səbəbdən bu müəssisələrin nazirliyin tərkibinə keçməsi nə istehsal həcminə, nə istehlakçıya hər hansı bir təsir etməyəcək. Amma biz statistik məlumatları daha doğru əldə edirik. Dekabr ayından bunu müşahidə ediriksə, gələcəkdə daha da yaxşı olacaq. Mənim fikrimcə, bərpası ağır, su qıtlığı ilə üzləşən müəssisələr özəlləşdirilməyə veriləcək. Yaqin həmin müəssisələr arasında 1-2-i balıqartırma məqsədilə saxlanılacaq. Onları bərpa edəcəklər".

### "GƏLƏCƏKLƏ BAĞLI ÜMİDLİYİK"

Sədr gələcək haqqında xeyli müsbət danışdı: "Balıqçılıq sahəsinin inkişafı üçün yeni strategiya planı hazırlanacaq. Ümid edirəm ki, onların əməyi nəticəsində yenidən dirçəliş mümkün olacaq. Sahibkarlarımız da belə olduğu halda subsidiyalardan yararlana bilər. O səbəbdən biz gələcəklə bağlı ümidliyik. Düşünürəm ki, bir neçə ildən sonra istehlakçılar da yeni qərarların müsbət nəticələrini görə biləcək".





Zaur Salmanlı

## "BU SAHƏDƏ BİR SIRA SÜNİ ÇƏTİNLİKLƏR VAR İDİ"

Azərbaycan Balıqçılar İttifaqının rəhbəri Əfqan Əliyev də yeni qərarın uğurlu olacağı qənaətindədir: "Əksər ölkələrdə balıqçılığa aid bir dövlət qurumu mövcuddur. Bu sahə KTN-in tabeçiliyində fəaliyyət göstərdiyi üçün səmərəli olduğunu düşünürəm. Balıqçılığın KTN-ə verilməsi balıqartırma sahəsində sahibkarlarda yaxşılığa doğru ümid yaradıb. Bu sahə həm gəlirli, həm də maraqlıdır, sadəcə bir sıra süni çətinliklərin yaradılmasına görə fermerlər və sahibkarlar bu sahədən uzaqlaşmışdı. Balıqçılığa ayrılan xüsusi diqqətin müsbət təsir edəcəyinə ümid edirəm".

Ə.Əliyev bu sahənin inkişafı üçün həll edilməli məsələlərə də toxundu: "Balıqçılığın inkişafı üçün ilk növbədə, fermerlərə dövlət dəstəyi, güzəştli kreditlər və müvəqqəti olaraq vergi güzəştləri tətbiq edilməlidir. Axar çayların Xəzərə və böyük su anbarlarına birləşən deltasına və yaxınlığına qəti şəkildə kvota verilməməlidir. Xəzərdə və daxili su hövzələrində balıq artımının inkişafı üçün Xəzərdə aprel ayından, daxili su hövzələrində mart ayından moratorium tətbiq edilməlidir. Sənaye balıqçılığının inkişafına gəldikdə, fermerlərə dövlət dəstəyi, güzəştli kreditlər veriləcək. Sənaye balıqçılığına kvota verilərkən istifadəyə uyğun olan alətlər (tor) təqdim olunmalıdır. Qadağa vaxtı kürülü balıq satılan market və bazarlarda eyni qaydada cərimələr tətbiq edilməlidir".



Əfqan Əliyev

## "AZƏRBAYCAN İXRAC ÖLKƏSİNƏ ÇEVRİLƏCƏK"

Müsahibimizin fikrincə, artıq balıqçılıq sahəsində həm keyfiyyət yüksəldilib, həm də rəqabət artıb: "Qadağa vaxtı kürülü və ovlanması qadağan edilmiş balıqların satışı ilə məşğul olan market və bazarlarda mövsümlə bağlı monitorinqlər aparılmalı və qanuna riayət etməyən sahibkarlar müvafiq qaydada məsuliyyətə cəlb olunmalıdır. Bu süni balıqartırmaya ehtiyacı artıracaq və fermerlər arasında keyfiyyətli rəqabətə də təsir göstərəcək. Azərbaycanda son zamanlar balıq məhsullarının keyfiyyətinə, yerli balıqlara əhali daha çox üstünlük verir, buna görə də artıq keyfiyyətli balıq yetişdirməyə üstünlük verən fermerlər arasında rəqabət var".

Ə.Əliyev düşünür ki, imkanlardan düzgün istifadə edilsə, balıq ixrac edən ölkəyə çevrilə bilərik: "Hazırda ölkəyə balığın 80 faizi xaricdən gəlir. Düşünürəm ki, daxili bazarı təmin etmək üçün böyük ehtiyac var, ona görə də rəqabətdən danışmaq hələ tezdir. Azərbaycan hava və iqlim şəraitinə görə ilin bütün mövsümləri balıqartırma üçün əlverişlidir".



# BAHALI SƏFƏR, ARTIQ XƏRC

Ölkəmizə gələn turistlərin sayında azalma müşahidə edilir. Ekspertlər bunu yaşanan geosiyasi proseslərlə əlaqələndirirlər. Lakin daxili turizmdə inkişaf müşahidə olunur.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Azərbaycana bu ilin yay mövsümündə gələn turistlərin sayı 5 faizdən çox azalıb. Belə ki, bu il iyun-avqust aylarında ölkəyə 740 min 722 turist səfər edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz azdır. Mövsüm ərzində ən çox turist 196 min 789 nəfər olmaqla, Rusiyadan gəlib. Bu göstərici ötən ilin yay mövsümü ilə müqayisədə 12 faiz azalma deməkdir. İkinci yerdə 116 min 479 nəfərlə Türkiyədən gələnlər qərarlaşıb. Bu da bir il əvvələ nisbətən 8,6 faiz artım deməkdir. Maraqlıdır, ölkəyə gələn turistlərin sayı niyə azalıb?

### "BUNUN OBYEKTİV SƏBƏBLƏRİ VAR"

Millət vəkili Vüqar Bayramov "Kaspi"yə açıqlamasında bildirdi ki, turizm enerji sektorundan sonra ölkəyə ən çox valyuta gətirən sahədir. Bu səbəbdən turizmin inkişaf etdirilməsi və ölkəyə gələn turistlərin sayının artırılması prioritet məsələlərdəndir: "Pandemiyadan sonrakı dövrdə ölkəyə gələn turistlərin sayında artımlar müşahidə etdik. Lakin 2025-ci ildə bəzi ölkələrdən, xüsusilə Rusiya və Hindistandan gələn turistlərin sayında azalma qeydə alınır. Bunun obyektiv səbəbləri var. Səbəblər bəzən iki ölkə arasındakı münasibətlər, xidmət keyfiyyəti və qiymətlərlə bağlıdır. Təbii ki, turizm sektorunda xidmətin artırılması və qiymətlərin optimallaşdırılması çox vacibdir. Çünki xidmət keyfiyyətinin artırılması daha çox turistlərin cəlb edilməsinə imkan yarada bilər".

Millət vəkili vurğulayır ki, daha çox turistin cəlb edilməsi üçün fasiləsiz turizm imkanlarının formalaşdırılması və turistik məhsulların genişləndirilməsi xüsusilə vacibdir: "Bu kontekstdə islahatların dərinləşdirilməsi zəruridir ki, növbəti mərhələdə ölkəyə gələn turistlərin sayında azalma müşahidə olunmasın".

### GƏRGİNLİK, TƏYYARƏ QƏZASI...

Turizmçi Anar Həsənov deyir ki, bu il Rusiyada yaşayan azərbaycanlıların səfərlərinin azalması turist axınına ciddi təsir göstərib: "Bunun başlıca səbəbi Azərbaycanla Rusiya arasında yaranmış gərginlikdir. Təyyarə qəzasından sonra insanlar hava nəqliyyatında təhlükəsizliklə bağlı narahatlıq keçirməyə başladılar. Üstəlik, AZAL-ın bəzi reyslərinin ləğv olunması və digər reyslərdə biletlərin qiymətinin bahalaşması da bu prosesə mənfi təsir göstərdi".

Türkiyə istiqamətinə gəlincə, burada da maraqlı dəyişikliklər müşahidə olunur. Həmsöhbətimiz bildirir ki, Türkiyə vətəndaşları üçün hazırda Avropada və ya Misirdə istirahət etmək daha sərfəlidir: "Yəni bu istiqamətlərdə istirahət etmək Azərbaycana gəlməkdən ucuz başa gəlir. Əvvəllər türkiyəli turistlər Gürcüstan üzərindən quru yolla Azərbaycana səfər edə bilirdilərsə, hazırda bu, demək olar ki, mümkün deyil. Bu da turist axınının azalmasına səbəb olur".




Foto: Firudin Səlimov/Global Photostock

## Geosiyasi gərginliklər, əlverişsiz xərclər

Azərbaycan Turizm Peşəkarları Təşkilatının rəhbəri Ceyhun Aşurov da təsdiqləyir ki, regionda son aylarda baş verən geosiyasi gərginliklər turistlərin sayına birbaşa təsir göstərib: "İran-İsrail qarşıdurması, Pakistan-Hindistan münasibətlərindəki gərginlik və digər münaqişələr Azərbaycanın hədəf bazarlarından gələn turistlərin sayına birbaşa təsir göstərib. Bu ölkələr Azərbaycanın əsas turizm bazarları sayıldığından, həmin istiqamətlərdəki azalma ümumi statistikaya da ciddi şəkildə təsir edib. Hava məkanının bir sıra dövrlərdə bağlı olması da bu prosesə təsirsiz qalmayıb. Belə ki, ərəb ölkələrindən gələn turistlər üçün uçuş marşrutlarının uzanması, normalda 3 saat olan uçuşun 6-7 saata qədər çəkməsi Azərbaycana səfəri həm vaxt, həm də xərclər baxımından əlverişsiz vəziyyətə gətirib".

## "Azərbaycan əlverişli turizm istiqamətidir"

C.Aşurov vurğulayır ki, Azərbaycan həm qonaqlama, həm də qidalanma baxımından regionda turistlər üçün kifayət qədər əlverişli ölkə hesab olunur: "Lakin ölkəyə gəlmək hazırda nisbətən baha başa gəlir. Nəzərə alsaq ki, quru sərhədlər hələ də bağlıdır, turistlər yalnız hava nəqliyyatından istifadə edə bilirlər. Uçuş biletlərinin qiymətləri isə hər zaman sərfəli və əlçatan olmur. Bu da turistlərin seçimlərinə birbaşa təsir göstərir. Xaricə səfərlərin bahalaşması daxili turizmin inkişafına təkan verib. Pandemiyadan əvvəl, 2019-cu ildə təxminən 5,5 milyon Azərbaycan vətəndaşı ölkə xaricinə səfər edirdi. Hazırda bu rəqəm hələ də həmin səviyyəyə çatmayıb, yəni çıxışların sayı o dövrdəkinin təxminən yarısı qədərdir. Bu da göstərir ki, tələbatın böyük hissəsi ölkə daxilində qarşılanır. Ölkədaxili səfərlərin sayı və dinamikası nəzərəçarpacaq dərəcədə artıb".

### ƏGƏR TRANZİT HAVA LİMANLARI İLƏ DAHA SIX ƏLAQƏLƏR QURULARSA...

Həmsöhbətimiz vurğulayır ki, daxili turizmin canlanmasında həmkarlar ittifaqlarının və turizm şirkətlərinin təşəbbüsləri mühüm rol oynayıb: "Xüsusilə bu ilin yay aylarında Həmkarlar İttifaqının yeni platforması əsasında səfərlərin sayı artdı. Turizm şirkətləri artıq 1-2 günlük daxili turlar təşkil edirlər. Bu da ölkədaxili turizmi daha əlçatan edib. Yalnız hotellər deyil, kənd evləri, kiçik ailəvi evlər, "aframe" tipli evlərin sayının artması da insanlara münasib qiymətlərlə istirahət imkanı yaradır. Amma gələn il daha çox turist qəbul etmək üçün hava nəqliyyatı infrastrukturundan istifadə zəruridir. Əgər quru sərhədlərin açılması geciksə, digər beynəlxalq hava limanlarımızın imkanlarından daha səmərəli istifadə edilməlidir. Əlverişli qiymətə uçuşlar təklif edən aviaşirkətlərin cəlb olunması vacibdir. Əgər tranzit hava limanları ilə daha sıx əlaqələr qurularsa, həm ölkəmizə gələn turistlərin sayı, həm də regionlarda turizm aktivliyi artar".

# SOCAR-IN KREDİT REYTİNQİ YÜKSƏLDİLİB




"Standard and Poor's" proqnozlaşdırır ki, "Shah Deniz Compression" layihəsinin həyata keçirilməsi Azərbaycana əlavə olaraq, təxminən 50 milyard kubmetr təbii qaz və 25 milyon barel qaz kondensatı hasilatını təmin edəcək.

"Standard and Poor's" ("S&P") beynəlxalq reytinq agentliyinin baza ssenarisinə əsasən, 2025-2027-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) əsaslı xərcləri illik təxminən 3 milyard manat təşkil edəcək ki, bu da son iki ilin göstəricilərindən yüksəkdir. Bu barədə "Report" "S&P"nin hesabatına istinadən məlumat verir. "Demək olar ki, tamamlanmış "Şahdəniz 2" layihəsi və bu il imzalanmış "Shah Deniz Compression" layihəsi SOCAR-ın əlavə investisiyalar hesabına hasilatın artırılması istiqamətində davam edən səylərini nümayiş etdirir", - sənəddə qeyd olunur.

## SƏRBƏST PUL AXINI BİR MİLYARD MANAT PROQNOZLAŞDIRILIR

"S&P"nin baza ssenarisinə görə, agentliyin metodologiyasına uyğun olaraq təshih edilmiş FFO-nun borca nisbəti 2025-2027-ci illərdə 12-15% diapazonunda qalacaq və mövcud nağd vəsaitlər nəzərə alınmaqla 20%-i ötəcək. Bununla yanaşı, müsbət sərbəst pul axını (FOCF) illik təxminən bir milyard manat məbləğində proqnozlaşdırılır.

Agentlik vurğulayır ki, hasilat EBITDA-nın əsas mənbəyi və SOCAR-ın fəaliyyətinin əsas istiqaməti olaraq qalır, buna görə də şirkətin Azərbaycan ərazisində yeni sahələrin işlənməsinə və mövcud aktivlərin genişləndirilməsinə investisiya qoymağa davam edəcəyi gözlənilir.

## Maliyyə siyasətinin şəffaflığı əhəmiyyətli dərəcədə yaxşılaşıb

"S&P" həmçinin SOCAR-ın uzunmüddətli kredit reytinqini və təminatsız borc reytinqini "BB-" səviyyəsindən "BB" səviyyəsinə yüksəldib. Agentlik qeyd edib ki, SOCAR-ın maliyyə siyasətinin şəffaflığının və məlumatların açıqlanması səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması şirkətin fəaliyyəti və maliyyə göstəricilərini daha da izlənilə bilən edib.

"Biz bu dəyişiklikləri SOCAR-ın fərdi kredit qabiliyyətinin (SACP) qiymətləndirilməsini "B" səviyyəsindən "BB-" səviyyəsinə yüksəltməklə əks etdirmişik. Sabit proqnoz SOCAR-ın əhəmiyyətli pul ehtiyatlarının dəstəklədiyi idarə olunan likvidlik mövqeyini qoruyacağına və onun əməliyyat göstəricilərinin sabit qalacağına dair fikirlərimizi əks etdirir. Bununla yanaşı, əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin (FFO) borca nisbəti dövlət dəstəyinin sabitliyi qorunmaqla 12%-dən yuxarı səviyyədə qalacaq", - agentliyin məlumatında qeyd olunub.

## ƏLAVƏ 50 MİLYARD KUBMETR TƏBİİ QAZ

"S&P"-nin proqnozlarına əsasən, "Shah Deniz Compression" (SDC) layihəsinin həyata keçirilməsi Azərbaycana əlavə olaraq, təxminən 50 milyard kubmetr təbii qaz və 25 milyon barel qaz kondensatı hasilatını təmin edəcək.

Qeyd olunur ki, SDC layihəsi üzrə yekun investisiya qərarı konsorsium tərəfindən 2025-ci ilin iyun ayında qəbul edilib və layihənin ümumi dəyəri 2,9 milyard ABŞ dolları olaraq qiymətləndirilib. "S&P"nin gözləntilərinə görə, SOCAR-ın 2025-ci ildə neft hasilatı 2024-cü il səviyyəsində (7-7,5 milyon ton neft və 7-8,5 milyard kubmetr təbii qaz) qalacaq. "SOCAR ölkədə neft və qaz hasilatına nəzarət edir: 2024-cü ildə onun əsas idarəçiliyində olan aktivlərdə, eləcə də bir sıra nisbətən kiçik birgə müəssisələrdə 7,5 milyon ton neft və 7,7 milyard kubmetr təbii qaz hasil edilib", - agentlik bildirib.







# Zaqatala sakini "Nar"dan avtomobil qazandı

Sərfəli mobil operator "Nar" "Çoox Şanslı" lotereyası çərçivəsində növbəti avtomobil tirajını uğurla yekunlaşdırıb. Belə ki, üçüncü "Haval H6 Ultra" avtomobilinin sahibi müəyyənləşib. Bu dəfə qalib Zaqataladan olan Nəcabət İbrahimova olub. "Nar" qalibi təbrik edərək ona avtomobilin açarını təqdim edib. Bununla yanaşı, "Xiaomi Redmi Note 14 Pro" smartfonunu qazanan üç "Nar" abunəçisi – Təvəkgül Həmidov, Elvin Dünyamalıyev və Şakir Həsənov hədiyyələrini böyük sevinclə qəbul ediblər.

Qaliblər tam təsadüfi seçimlə müəyyən olunub və nəticələr canlı yayımda elan edilib. Qeyd edək ki, "Çoox Şanslı" lotereyası ilin sonuna qədər davam edəcək. Bu müddət ərzində "Nar" abunəçiləri hər gün "Xiaomi Redmi Note 14 Pro", hər həftə "Haval H6 Ultra" və finalda "Li L9 Ultra" avtomobili kimi möhtəşəm hədiyyələr qazanmaq imkanı əldə edirlər.

Xatırladaq ki, "Çoox Şanslı" lotereyasında iştirak etmək üçün "Nar" abunəçiləri sadəcə balanslarını artıra və ya şans qazandıran şanslı paketlərdən birini aktivləşdirə bilərlər. Belə ki, 1 AZN-lik şanslı paketə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik şanslı paketə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES; 3 AZN-lik şanslı paketə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür. Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır.

Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını "Nar+" tətbiqi və nar.az veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər.

Kaspi
Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2341
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# DƏRİ SƏNAYESİNDƏ YENİ DÖVR

Azərbaycanda dəri sənayesi hazırda dirçəliş mərhələsindədir. Xammal bazasının mövcudluğu və istehsalda müşahidə edilən artım bu sahənin həm daxili tələbatı ödəmək, həm də regional bazarlarda pay qazanmaq potensialını artırır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Bu ilin yanvar-avqust aylarında Azərbaycanda 39,8 min kvadratmetr emal edilmiş dəri istehsal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 51,3 faiz çoxdur. Bu il sentyabr ayının 1-nə olan vəziyyətə görə, Azərbaycanda 137,9 min kvadratmetr hazır məhsul ehtiyatı olub. 2024-cü ildə Azərbaycanda 64,5 min kvadratmetr dəri istehsal edilib ki, bu da 2023-cü illə müqayisədə 0,6 faiz çoxdur. Rəqəmlərdən göründüyü qədər dəri istehsalı zəif də olsa inkişaf edir. Bəs bu sahədəki mövcud potensialımız nə qədərdir?

### "POTENSİAL KİFAYƏT QƏDƏR YÜKSƏKDİR"

İqtisadçı-ekspert Famil Niftiyevin sözlərinə görə, hazırkı göstəricilər Azərbaycanda dəri sənayesinin müəyyən dirçəliş mərhələsində olduğunu göstərir: "Bu artım istehsal gücünün genişlənməsini və bazara çıxış imkanlarının yüksəldiyini nümayiş etdirir. Əgər hazır məhsul ehtiyatı 137,9 min kvadratmetrə çatıbsa, bu, daxili bazarda hələ də tam reallaşdırılmayan məhsul potensialının mövcudluğunu göstərir. Azərbaycan bu sahədə hələlik region daxilində məhdud istehsalçı hesab olunsa da, xammal bazası, xüsusilə, heyvandarlığın inkişafı və kənd təsərrüfatının güclənməsi dəri sənayesinin orta və uzunmüddətli dövrdə daha geniş miqyasda inkişaf etməsinə zəmin yaradır. Potensial həm daxili bazarı təmin etmək, həm də xarici bazarlardan pay əldə etmək baxımından kifayət qədər yüksəkdir".



Famil Niftiyev

### MÖVCUD ÇƏTİNLİKLƏR

Famil Niftiyev bu sahədəki mövcud çətinliklərdən də danışdı: "Texnoloji avadanlıqların köhnəlməsi və emal prosesində müasir texnologiyaların tam tətbiq edilməməsi məhsulun keyfiyyətinə mənfi təsir göstərir. İkincisi, ixtisaslı kadr çatışmazlığı var. Həm dizayn, həm də yüksək ixtisas tələb edən emal sahələrində peşəkar mütəxəssislərin sayının az olması məhsuldarlığı və keyfiyyəti məhdudlaşdırır. Üçüncü məqam maliyyələşmə və investisiya məsələləridir. Dəri sənayesinə xarici sərmayə cəlbi kifayət qədər zəifdir, yerli sahibkarlar isə yüksək maya dəyərinə görə istehsalı genişləndirməkdə çətinlik çəkirlər. Dördüncüsü, beynəlxalq sertifikatlaşdırma və ekoloji standartlara uyğunluq məsələləri tam həll olunmayıb. Qlobal bazarlara çıxış üçün məhsullar yalnız estetik deyil, həm də ekoloji baxımdan təhlükəsiz olmalıdır. Bu standartlara cavab verməkdə çatışmazlıqlar ixrac imkanlarını məhdudlaşdırır".

## KREDİT GÜZƏŞTLƏRİ, VERGİ İMTİYAZLARI

F.Niftiyevin fikrincə, bu çətinlikləri aradan qaldırmaq üçün müəyyən işlər görülməlidir: "İlk növbədə, texnologiyaların modernləşdirilməsi, müasir avadanlıqların gətirilməsi və innovativ emal üsullarının tətbiqi prioritet olmalıdır. İkinci olaraq, peşəkar kadr hazırlığı gücləndirilməlidir. Texniki peşə məktəblərində və universitetlərdə dəri emalı, dizayn və moda yönümlü ixtisaslaşmış proqramlar açılmalıdır. Üçüncü addım, dövlət dəstək mexanizmlərinin daha effektiv tətbiqidir. Kredit güzəştləri, ixrac subsidiyaları və ixracatçılar üçün vergi imtiyazları bu sektorda motivasiya yarada bilər. Dördüncü istiqamət, beynəlxalq standartların tətbiqi və məhsulların keyfiyyət sertifikatlarının artırılmasıdır. Son olaraq, dəri məmulatları üzrə kiçik və orta müəssisələrin birgə klasterlər şəklində təşkili həm maya dəyərini azaldar, həm də rəqabət qabiliyyətini gücləndirər".

İqtisadçı həmçinin ixracla bağlı vacib məqamlardan bəhs etdi: "Hazırda Azərbaycanın dəri məhsullarının ixracı əsasən Türkiyə, Rusiya, Gürcüstan kimi regional bazarlara yönəlib. Avropa bazarına çıxış imkanları hələ məhdud olsa da, müəyyən həcmdə İtaliya və digər ölkələrə də ixrac qeydə alınıb. İxracı genişləndirmək üçün əsas şərt keyfiyyət göstəricilərinin Avropa İttifaqı və digər inkişaf etmiş ölkələrin standartlarına cavab verməsidir. Bundan başqa, brendinq və marketinq sahəsində ciddi işlər aparılmalıdır. Azərbaycan dəri məhsullarının milli dizayn üslubunun yaradılması və xarici sərgilərdə fəal iştirak ölkənin mövqeyini gücləndirə bilər. İxrac üçün logistikanın təkmilləşdirilməsi, Orta Dəhliz və digər nəqliyyat xətləri vasitəsilə məhsulların Avropaya və Asiya bazarlarına daha sürətli çatdırılması da əhəmiyyətlidir".



## "DƏRİ BAZARI ƏTRAFLI ARAŞDIRILMALIDIR"

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli də düşünür ki, Azərbaycanda dəri sənayesi zəngin xammal bazası və inkişaf etməkdə olan istehsal infrastrukturu ilə böyük potensiala malikdir: "Xüsusilə, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən ayaqqabı və dəri fabrikləri sənayenin inkişafında mühüm rol oynayır. Lakin inkişafa mane olan amillər də var. Məsələn, texnoloji infrastruktur zəifdir. Müasir istehsal avadanlıqlarının olmaması məhsul keyfiyyətinə mənfi təsir göstərir. İxrac bazarları barədə ətraflı məlumatın olmaması beynəlxalq bazarlara daxil olmağı çətinləşdirir. Bu sənayenin inkişafı üçün ixtisaslı işçi qüvvəsinin çatışmazlığı mövcuddur".

A.Nəsirlinin sözlərinə görə, müasir istehsal avadanlıqlarının gətirilməsi və rəqəmsal texnologiyaların tətbiqi ilə məhsul keyfiyyətini artırmaq olar: "İxrac bazarları barədə ətraflı araşdırmalar aparılmalı və uyğun marketinq strategiyaları hazırlanmalıdır. İxtisaslı işçi qüvvəsinin yetişdirilməsi üçün təlim proqramları təşkil edilməlidir. Azərbaycanda dəri məhsullarının əsas ixrac bazarları barədə spesifik məlumatlar məhduddur. Lakin, ümumiyyətlə, dəri sənayesi məhsulları beynəlxalq bazarlarda yüksək tələbatla qarşılanır. Bu səbəbdən, ixracın genişləndirilməsi üçün beynəlxalq sərgilərdə iştirak, ticarət missiyalarının təşkil edilməsi və xarici tərəfdaşlarla əməkdaşlığın artırılması tövsiyə olunur".



Akif Nəsirli

# TƏHSİLƏ AYRILAN MALİYYƏ YETƏRLİDİRMİ?

Gələn ilin dövlət büdcəsində nəzərdə tutulan təhsil xərcləri qismən də olsa artırılacaq. Ekspertlər bu vəsaitin daha çox rəqəmsal təhsil mühitinin genişləndirilməsinə, peşə təhsilinə və elm sahəsinə yönəldilməsini təklif edirlər.

**SEVİNC ABBASOVA**

Gələn il üçün təhsil xərcləri 5 milyard 15 milyon 897 min manat məbləğində proqnozlaşdırılır. Bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb. Sənədə əsasən, həmin vəsaitdən məktəbəqədər təhsilə 468 milyon 191 min manat, ümumi təhsilə 2 milyard 414 milyon manat, peşə təhsilinə 105 milyon manat, orta ixtisas təhsilinə 94 milyon manat, ali təhsilə 212 milyon manat, əlavə təhsilə 20 milyon manat, təhsil sahəsində tətbiqi tədqiqatlara 7 milyon 883 min manat, digər müəssisə və tədbirlərə isə 1 milyard 692 milyon manat ayrılması nəzərdə tutulur. Bu rəqəmlər Azərbaycanda təhsilin maliyyələşməsi ilə bağlı vacib sualları gündəmə gətirir: ayrılan vəsait kifayətdirmi? Maliyyələşmə zamanı hansı sahələrə daha çox diqqət ayrılmalıdır? Hansı yeniliklərə ehtiyac var?

### XƏRCLƏRİN EFFEKTİV BÖLÜŞDÜRÜLMƏSİ VACİBDİR

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Mehriban Vəliyeva bildirir ki, son illərdə təhsilə ayrılan vəsaitlərdə ardıcıl artım müşahidə olunur. Ayrılan vəsait dövlət büdcəsinin 10–12 faizini təşkil edir ki, bu, beynəlxalq təcrübədə yaxşı göstərici sayılır: "Dövlət büdcəsindən təhsilə 2021-ci il 3,1 mld manat, 2022-ci il 3,8 mld manat, 2023-cü il 4,4 mld manat, 2024-cü il 4,8 mld manat, 2025 (proqnoz) 5,1 mld manat ayrılmışdır. Büdcə xərclərinin 11 faizi təhsilə yönəlir; əsas məqsəd keyfiyyət və idarəetmə effektivliyinin artırılmasıdır. Göründüyü kimi, hər il təhsilə dövlət büdcəsindən ayrılan vəsaitdə artım var. Təhsil dövlətin əsas strateji istiqamətlərindən biridir".

Millət vəkili hesab edir ki, ayrılan vəsaitin struktur baxımından necə yönəldilməsi daha önəmlidir. Onun sözlərinə görə, hazırda xərclərin böyük hissəsi əməkhaqqı və infrastruktur layihələrinə gedir ki, bu da labüd haldır. "Keyfiyyət və məzmun islahatları, müəllim hazırlığı, rəqəmsallaşma və elmi tədqiqatlara nisbətən az pay düşür", – deyə o vurğulayıb.



## Nəticəyönümlü maliyyələşməyə keçid

M.Vəliyevanın fikrincə, ilk növbədə rəqəmsal təhsil mühitinin genişləndirilməsinə önəm verilməlidir: "Region məktəblərində texnoloji bərabərsizlik aradan qaldırılmalıdır. Təhsil tədqiqatları və innovasiya fondları - təhsil siyasətinin elmi əsaslara söykənməsi önəmlidir. İnfrastrukturun modernləşdirilməsi, xüsusilə də kənd məktəblərində təchizat, laboratoriyalar və internet təminatı gücləndirilməlidir. Eyni zamanda dövlət–özəl sektor tərəfdaşlığı inkişaf etdirilməlidir. Peşə təhsilinə ayrılan maliyyə vəsaiti artırılmalıdır". Deputat əlavə edir ki, təhsilin maliyyələşməsində yeniliklərə ehtiyac var: "Maliyyələşmədə nəticəyönümlü modelə keçid vacibdir. Eyni zamanda rəqəmsal bacarıqlar fondu yaradılmalı, süni intellekt və texnoloji savadlılıq üzrə milli proqramlar hazırlanmalıdır. Məktəblərin idarəetmədə müstəqilliyi artırılmalıdır ki, büdcə planlamasında yerli qərarvermə səlahiyyəti genişlənsin. Təhsil startaplarına dəstək mexanizmləri tətbiq edilməlidir, innovativ pedaqoji layihələr üçün qrant mexanizmləri gücləndirilməlidir. Məktəbəqədər təhsilin əhatəliliyi baxımından yeni layihələr dəstəklənməli, təhsilin pillə və səviyyələri üzrə islahatlar aparılmalı, məzmun islahatları dərinləşdirilməlidir".

### ELM VƏ ALİ TƏHSİL MALİYYƏLƏŞMƏDƏN KƏNARDA QALIB

Təhsil eksperti Vüsal Kərimlinin sözlərinə görə, təhsilə ayrılan vəsaitin artması müsbət hal olsa da, əsas məsələ bu vəsaitin necə xərclənməsidir. O deyir ki, təhsilə ayrılan maliyyənin elm istiqamətinə nə qədər yönələcəyi hələ də qeyri-müəyyəndir: "Müəllimlərin əməkhaqlarının artırılması vacibdir, lakin elm və elmi araşdırmaların maliyyələşməsi də diqqətdən kənarda qalmamalıdır. Təhsil adı ilə verilən qrantların istiqaməti bəzən suallar doğurur. Burada əsas məsələ maliyyənin çoxluğu yox, təyinatı üzrə xərclənməsidir".

V.Kərimlinin fikrincə, Elm və Təhsil Nazirliyinə ayrılan vəsait əsasən ümumtəhsil sahəsinə yönəlir, ali təhsil müəssisələri dövlət dəstəyindən kənarda qalır: "Bəzən universitetlər özləri Təhsilin İnkişafı Fonduna vəsait ödəyirlər. Halbuki ali təhsilin inkişafı üçün birbaşa maliyyə dəstəyi və elmi qrantlar ayrılmalıdır. Yəni, elm və ali təhsil istiqaməti tamamilə unudulub. Azərbaycan Elm Fondu fəaliyyət göstərsə də, onun büdcəsi məhduddur. Bu baxımdan, təhsilə ayrılan vəsaitin bölüşdürülməsi yenidən nəzərdən keçirilməli, elm və ali təhsilin inkişafı dövlət siyasətində prioritet yer tutmalıdır".



Vüsal Kərimli

## Şəffaflıq və hesabatlılıq əsas şərtdir



Mehriban Vəliyeva



Kamran Əsədov

ADPU-nun Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədov isə bildirir ki, təhsil üçün ayrılan vəsaitin payı ÜDM-də hələ də istənilən səviyyəyə çatmayıb: "2025-ci ilin büdcə göstəricilərinə görə, təhsilə ayrılan 5 milyard ölkə büdcəsinin təxminən 10,5 faizini təşkil edir. Müqayisə üçün qeyd edək ki, bu göstərici Estoniyada 17 faiz, Finlandiyada isə 19 faiz civarındadır. Bu, Azərbaycanın təhsil investisiyalarının hələ də inkişaf etmiş ölkələrin səviyyəsindən aşağı olduğunu göstərir".

Mütəxəssis vurğulayır ki, təhsilin maliyyələşməsində diqqət yetirilməli əsas məsələ vəsaitin yalnız miqdarı deyil, həm də səmərəliliyidir: "Dünya Bankının 2023-cü il hesabatına görə, Azərbaycan təhsilə ayrılan büdcə xərclərinin effektivlik göstəricisində 100 bal üzrə 63 bal toplayıb. Yəni ayrılan vəsaitlərin tədris keyfiyyətinə, müəllim peşəkarlığına və öyrənmə nəticələrinə təsiri hələ də məhduddur. Bu, maliyyə artımının təkbaşına keyfiyyət artımına gətirmədiyini göstərir. Növbəti mərhələdə büdcə artımı ilə yanaşı, onun elmi əsaslı planlaşdırılması, bölgüsünün ədalətli və səmərəli aparılması, təhsil xərclərinin keyfiyyət göstəriciləri ilə əlaqələndirilməsi prioritet olmalıdır".

AVTOMOBİL PARKINDA EKOLOJİ TƏMİZ AVTOMOBİLLƏRİN ARTMASI BENZİNƏ OLAN TƏLƏBATI AŞAĞI SALIR

# ÇİN AVTOMOBİLLƏRİ "Aİ-95"İ DƏ "VURUR"

**Hazırda pərakəndə satış seqmentində "Aİ-92" markalı benzininə olan tələbat "Aİ-95" markalı benzinlə müqayisədə xeyli yüksəkdir. "Aİ-95" markalı benzin baha olduğuna görə sürücülərin böyük hissəsi daha ucuz yanacaq növünə üstünlük verir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda 1 067,54 min ton "Aİ-92" markalı avtomobil benzini istehsal olunub. Bu, illik müqayisədə 2,1% artım deməkdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə ölkədə 13,8 min ton "Aİ-95" markalı avtomobil benzini istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 45,02% azdır. Qeyd edək ki, bu ilin yanvar-sentyabr aylarında ölkədə ümumilikdə 1 081,3 min ton avtomobil benzini istehsal olunub, bu da illik müqayisədə 1% çoxdur. Maraqlıdır, Azərbaycanda "Aİ-95" markalı avtomobil benzininin istehsalının azalmasının səbəbi nədir?

**"SÜRÜCÜLƏR UCUZ YANACAĞA ÜSTÜNLÜK VERİRLƏR"**

Enerji sektoru üzrə ekspert Zəfər Vəliyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, ölkə üzrə "Aİ-95" markalı avtomobil benzininin topdan və pərakəndə satış qiymətləri Tarif Şurası tərəfindən tənzimlənmir. Bu isə bazarda qiymətlərin beynəlxalq neft məhsulları bazarındakı dəyişikliklərə birbaşa bağlı olmasına gətirib çıxarır: "Aİ-95" markalı avtomobil benzininə olan tələbatın azalmasının birinci səbəbi pərakəndə satış qiymətinin yüksək olmasıdır. Hazırda pərakəndə satış seqmentində "Aİ-92" markalı benzininə olan tələbat "Aİ-95" markalı benzinlə müqayisədə xeyli yüksəkdir. "Aİ-95" markalı benzin baha olduğuna görə sürücülərin böyük hissəsi daha ucuz yanacaq növünə üstünlük verir. Digər tərəfdən, "Aİ-95" markalı benzinin əsas hissəsi ölkəyə idxal yolu ilə gətirilir. Xarici bazarlarda neft məhsullarının qiymətində baş verən dəyişikliklər, həmçinin beynəlxalq ticarət şəraitindəki qeyri-sabitlik idxal prosesini çətinləşdirir və bu da daxili bazarda qiymət artımına təsir göstərir. Nəticədə idxalın məhdudlaşması pərakəndə satış seqmentində bu markanın payının azalmasına səbəb olur".



## BU AMİL DƏ BENZİNƏ TƏLƏBATI AZALDIR

Mütəxəssis bildirir ki, ikinci səbəb ekoloji təmiz avtomobillərin sayının artmasıdır: "Son illər ölkəmizdə ekoloji təmiz nəqliyyat vasitələrinin, yəni hibrid, plug-in hibrid və tam elektrik avtomobillərinin sayında kəskin artım müşahidə olunur. Rəqəmlər də bunu təsdiqləyir. 2020-ci ilin əvvəlindən 2025-ci ilin 1 oktyabr tarixinədək Azərbaycana ümumilikdə 122 579 ədəd ekoloji təmiz minik avtomobili idxal edilib. Təbii ki, ölkənin avtomobil parkında ekoloji təmiz avtomobillərinin sayının durmadan artması avtomobil benzininə olan tələbatı aşağı salır. Ümumiyyətlə, "Aİ-92" markalı benzinin istehsal və istehlak həcmlərinin sabit qalacağı, elektrik enerjisi ilə işləyən nəqliyyat vasitələrinin payının isə ilbail artacağı proqnozlaşdırılır".

**"BENZİN İSTEHLAKININ AZALMASI GÖZLƏNİLƏN İDİ"**

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası İdarə Heyətinin sədri Eyyub Əliyev deyir ki, son illər ölkəmizdə ekoloji təmiz nəqliyyat vasitələrinə hibrid, plug-in hibrid və elektrik avtomobillərinə tətbiq edilən güzəştlərdən sonra insanların bu tip avtomobillərə marağı artıb və nəticədə onların satış həcmi əhəmiyyətli dərəcədə yüksəlib: "Bunun fonunda ölkəmizdə benzin istehlakının azalması da təbii və gözlənilən hal idi. Qarşıdakı illərdə həm ekoloji təmiz, həm də kiçik mühərrikli avtomobillərə tələbatın artması, şübhəsiz ki, benzin istehlakında azalmaya səbəb olacaq. Nəzərə alsaq ki, hazırda ölkədə elektrik avtomobilləri üçün infrastruktur həm "Azərişıq" ASC, həm də özəl şirkətlər tərəfindən qurulur və bu proses davam edir. Hazırda həm Bakıda, həm də bölgələrdə, o cümlədən işğaldan azad olunmuş ərazilərdə şarj məntəqələri mövcuddur. Yaxın gələcəkdə bu məntəqələrin günəş panelləri ilə təmin olunması və həmin panellər vasitəsilə toplanan enerjinin avtomobillərə ötürülməsi kimi layihələr də həyata keçiriləcək. Bütün bunların fonunda qarşıdakı illərdə benzinin istehlakında azalma gözlənilir".

**"AZALMA TENDENSİYASI DAVAM EDƏCƏK"**

Mütəxəssis bildirir ki, "Aİ-95" markalı benzinin istehsalının azalmasının ikinci səbəbi Çin istehsalı avtomobillərdir:




"Nəzərə almaq lazımdır ki, hazırda ölkəmizə əsasən Çin istehsalı avtomobillər idxal olunur və bu avtomobillərin istehsalçıları 92 oktanlı benzinlə istifadəyə icazə verir. Bu amilləri nəzərə aldıqda, yaxın illərdə elektrikli avtomobillərinin daha da kütləviləşməsi nəticəsində benzindən istifadə həcminin azalma tendensiyası davam edəcək".

Qeyd edək ki, növbəti il Azərbaycanda "Aİ-95" markalı avtomobil benzini istehsalı planlaşdırılmır. Daxili bazarda istehlak "Aİ-92" markalı benzində 239,9 min ton və ya 14,7%, dizel yanacağında isə 298,5 min ton və ya 13,7% azalma ilə proqnozlaşdırılır.


Zəfər Vəliyev


Eyyub Əliyev

# ƏT BAZARINDA BÖHRAN DƏRİNLƏŞİR

SEVİNC ABBASOVA

Bakıda ət bazarında qiymətlər yenidən artıb. Ötən həftədən paytaxtın bir çox bazar və qəssab dükanlarında mal ətinin qiyməti əhəmiyyətli dərəcədə artıb. Hazırda sümüklü mal ətinin kiloqramı 18 manata, sümüksüz ət isə 22 manata satılır. Qəssablar bu bahalaşmanı mal bazarlarının bağlanması və təchizat zəncirində yaranan fasilələrlə əlaqələndirirlər. Alıcılar isə artıq ətin qiymətini “fantastik həddə” yaxın adlandırırlar. İndi hamını düşündürən suallar var: bahalaşma nə qədər davam edəcək? Atılan addımlar qiymətləri sabitləşdirmək əvəzinə daha da artırmırmı? Ən əsası, qırmızı ət artıq sadə ailələrin süfrəsindən tamamilə çəkiləcəkmi?

**Hazırda ölkənin bir çox rayonlarında heyvanlar arasında dabaq xəstəliyi müşahidə olunur. Bu səbəbdən bazarlara tətbiq edilən məhdudiyyətlər mal ətinin təklifini azaldır. Bazar qanunlarına görə, təklif azaldıqda qiymətlər artır.**



### QƏRARIN VERİLMƏSİNDƏ GECİKMİŞİK?

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirir ki, ölkədə dabaq xəstəliyinin kütləvi yayılması fonunda ət bazarında bahalaşma qaçılmaz idi: “Əslində bazarların bağlanması və karantin tədbirləri xəstəliyin yayılma zəncirini qırmaq üçün əsas vasitədir. Dabaq xəstəliyinin inkubasiya dövrü təxminən 7–15 gündür, yəni bu zənciri qırmaq üçün 10–15 gün kifayətdir. Lakin görünür, bu istiqamətdə atılan addımlar bir qədər gecikib. Əgər bu proses oktyabrın 10-dan tətbiq olunsaydı, ayın 20–25-nə qədər vəziyyət sabitləşə, itkilər də xeyli azala bilərdi. Amma tədbirlər bir qədər gec başladı”.

Ekspertin sözlərinə görə, hər bir qərarın həm müsbət, həm də mənfi tərəfi olur. Dabaq xəstəliyinə görə tətbiq olunan karantin də istisna deyil: “Bazarlar bağlandığı üçün fermerlər heyvan satmaqda çətinlik çəkirlər. Ət satışı ilə məşğul olan sahibkarlar məcbur olub qapı-qapı gəzərək heyvan alırlar. Bu da əlavə xərc yaradır və maya dəyərini artırır”.



## “BAHALAŞMA UZUNMÜDDƏTLİ OLA BİLMƏZ”

Akif Nəsirli hesab edir ki, bu bahalaşma uzunmüddətli ola bilməz: “Əgər bu vəziyyət uzansa, çox ciddi mənfi nəticələr ortaya çıxacaq. Çünki yerli ət bahalaşsa da, əhali ətsiz qalmır. Alternativ kimi idxal olunan dondurulmuş və ya təzə ətlər mövcuddur və onlar daha ucuzdur. Əhali bu məhsullara vərdiş etdikdən sonra, xüsusilə gəliri aşağı olan təbəqə yerli ətə geri dönməyəcək, idxal ətinin istehlakçısı kimi qalacaq. Bu isə yerli istehsalçıların və qəssabların müştəri itkisinə səbəb olacaq”.

Ekspert əlavə edir ki, nəticədə bazarda iki əks istiqamətli təzyiq formalaşır: “Bir tərəfdən dabaq xəstəliyi səbəbindən istehsal azalır və bu, ətin qiymətinin artımına təzyiq yaradır. Digər tərəfdən isə idxal ətlərə tələbin artması və yerli müştərinin itirilməsi bazarda ucuzlaşma istiqamətində təzyiq yaradır. Hansı qüvvənin daha üstün gələcəyini isə zaman göstərəcək”.

### BAZARDA GÖZƏGÖRÜNMƏZ QÜVVƏ

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov dabaq xəstəliyi səbəbindən təkcə satışın dayanmadığını, alışın da azaldığını deyir. İnsanlar ət və süd məhsulları almaqdan çəkinirlər.

Ekspertin sözlərinə görə, bu vəziyyətdə bahalaşma iqtisadi qanunlara ziddir, çünki normalda bir məhsula tələbat azalanda qiymət də enməlidir: “Bizdə isə əksinə baş verir. Azərbaycanda ət bazarını sanki gözəgörünməz bir qüvvə idarə edir. Bəzən heç bir əsas olmadan qiymətlər qalxır. Halbuki son vaxtlar ölkəyə xaricdən - Monqolustandan, Hindistandan, Rusiyadan çoxlu dondurulmuş ət idxal olunur. Bunlar keyfiyyətli məhsullardır. Belə olan halda, bazara ucuz ət daxil olanda qiymətlər düşməlidir, amma nədənsə enmir. Məsələn, bazarda kiloqramı 12 manata Monqolustan quzusu satılır, amma yerli quzu ətinin kiloqramının qiyməti 21–22 manatdan aşağı düşmür,” – deyə Həsənov vurğulayır.

## “RESTORANLAR MONQOLUSTAN QUZUSU ALIRLAR”

Mütəxəssis hesab edir ki, əhali hələlik xaricdən idxal olunan ət məhsullarına etimad göstərmir: “Dondurulmuş ət yeməmək sadəcə stereotipdir. Əslində ölkədə ət istehlakı daha çox iaşə obyektlərində baş verir. Məsələn, bir qəssabxana sadə vətəndaşa gündə dörd quzu satırsa, bir restoran 20 quzu alır. Artıq bir çox restoranlar Monqolustan quzusu alır. Bu isə o deməkdir ki, yerli quzu satılmadığı üçün qiymət aşağı düşməlidir, amma bu baş vermir”. Mircavid Həsənovun fikrincə, dabaq xəstəliyi ilə bağlı vəziyyət normallaşandan sonra qiymətlər tədricən ucuzlaşacaq: “Hazırda əksər təsərrüfatlarda xəstəlik var, satış azalıb. Amma bu, müvəqqəti haldır. Vəziyyət düzələndə qiymətlər də sabitləşəcək. Üstəlik, xaricdən ucuz ət idxalının təsiri özünü göstərəcək. Bu, bir növ Çin avtomobillərinin ölkəyə ilk gəlişinə bənzəyir. Əvvəllər hamı onları pisləyirdi, indi isə hər yerdə Çin maşınları satılır. Dondurulmuş ətlərə də zamanla etimad yaranacaq. Mən Monqolustandan gələn ətlərlə maraqlanmışam, çox keyfiyyətlidir, orqanikdir. Heyvanlar təbii şəraitdə yetişdirilir, heç bir qida əlavəsi istifadə olunmur”, - deyə ekspert qeyd edir.


Mircavid Həsənov

### HƏM XƏRCLƏR, HƏM RİSKLƏR ARTIB

İqtisadçı Xalid Kərimli vurğulayır ki, heyvanlarda yayılan xəstəlik səbəbindən bazarlara tətbiq edilən məhdudiyyətlər mal ətinin təklifini azaldır: “Bazar qanunlarına görə, təklif azaldıqda qiymətlər artır. Hazırkı məhdudiyyətlər bazara çıxarılan heyvan sayını azaldır və bu da qiymət artımına səbəb olur. Eyni zamanda, bu vəziyyət ənənəvi mal bazarlarının fəaliyyətinə mane olur və rəqabət mühitini dəyişir. Bu isə əlavə qiymətartırıcı amildir. Digər tərəfdən, alıcı davranışı da dəyişir. İnsanlar xəstəlik təhlükəsi səbəbindən bazarlardan çox, mağazalardan kəsilmiş ət almağa üstünlük verirlər. Mağazalara yönələn bu artan tələbat da qiymətləri yüksəldir. Nəticədə, mal ətinin bahalaşması balıq və toyuq ətinə olan tələbatı da artırır və bu, həmin məhsulların qiymətlərinə də təsirsiz ötüşmür”.

Ekspertin sözlərinə görə, qiymət artımının nə qədər davam edəcəyi birbaşa epidemiyanın gedişindən asılı olacaq: “Əgər xəstəlik qısa müddətdə nəzarət altına alınarsa, qiymətlər tədricən sabitləşə bilər. Amma xəstəlik uzun sürərsə, bu, ət bazarında daha uzunmüddətli bahalaşmaya gətirib çıxaracaq”.


Xalid Kərimli

“İNSANLAR HAQQINDA BİLDİKLƏRİ ƏSƏRƏ DAHA ÇOX MARAQ GÖSTƏRİRLƏR”

# “ƏNƏNƏLƏRİMİZİ YAŞATMAĞA ÇALIŞIRIQ”

Şervin Şadpur: “Əsas tamaşaçılarımız Kanadada yaşayan azərbaycanlılardır. Farslar, türklər, başqa millətlərin nümayəndələri konsertlərimizə gəlirlər. Yerli kanadalıları da zalda görürük”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Təbriz Azərbaycanlıları Musiqi və Rəqs Ansamblı Kanada hökuməti tərəfindən qeydiyyatdan keçib. Azərbaycan musiqi mədəniyyətini yaşatmaq, rəqslərimizə yeni həyat verməklə, klassik əsərləri səhnələşdirməklə böyük bir auditoriya toplayıb. Ansamblın yaradıcı direktoru Şervin Şadpur ansamblın hazırkı fəaliyyəti və gələcək planlarını bizimlə bölüşdü:

**● Şervin xanım, Təbriz Azərbaycanlıları Musiqi və Rəqs Ansamblı Kanadada çox tanınır.**

● Ansambl 2003-cü ildə yaranıb. O zaman biz Kanadada yaşamırdıq. Qardaşım Ramin dostları ilə ansamblı rəqs qrupu olaraq yaratmışdı. O, Türkiyədə təhsil alarkən Azərbaycan dərnəyində iştirak edib, Afaq Məlikova və Xanlar Bəşirov kimi ustad sənətkarlardan dərs alıb. Qardaşım Kanadaya köçəndən sonra dostları ilə birlikdə bu ansamblı yaratmağa qərar verdi. Məşqlərdən sonra Toronto Universitetində çıxış etdilər. 2012-ci ildə mən ailəmlə Kanadaya köçdüm. Bu ansamblı daha da genişləndirmək, ona xor və musiqi əlavə etmək qərarına gəldik. Mən özüm estetik cərrah, hazırda ansamblın musiqi direktoru olan həyat yoldaşım Polad Kaşif inşaat mühəndisi olsa da, uşaqlıqdan musiqi təhsilimiz var. Biz ansambla xor və musiqini əlavə etdikdən sonra kiçik konsertlərdə və festivallarda iştirak etməyə başladıq. Biz Azərbaycan bəstəkarlarının əsərlərini, daha sonra operettaları səhnələşdirməyə başladıq.

### “ƏSAS TAMAŞAÇILARIMIZ KANADADA YAŞAYAN AZƏRBAYCANLILARDIR”

**● Ansambl genişlənəndən sonra ilk tamaşaçılarınızı necə qazandınız?**

● Fəaliyyətimiz genişləndikcə həm Azərbaycan, həm də İran cəmiyyətlərində tanınmağa başladıq. Festivallarda, Novruz bayramında, Çillə bayramlarında təşkil etdiyimiz kiçik konsertlərimizdə iştirak etmək üçün insanlar artıq yer axtarırdı. Sosial platformalardakı paylaşımlarımız da bu təbliğatda rol oynadı. Biz indi konsertlərimizə bilet satışı təşkil etməklə daha geniş auditoriya toplaya bilmişik.

**● Əsas auditoriyanız kimlərdir?**

● Əsas tamaşaçılarımız Kanadada yaşayan azərbaycanlılardır. Farslar, türklər, başqa millətlərin nümayəndələri də konsertlərimizə gəlirlər. Yerli kanadalıları da zalda görürük.

**● Repertuarınızı öz istəyinizə, yoxsa tamaşaçıların zövqünə uyğun qurursunuz?**

● Konsertlərin repertuarı üçün əsasən bəstəkar əsərlərini seçirik. Bayramlarda daha şən əsərlərə üstünlük veririk. Emin Sabitoğlu, Fikrət Əmirov, Elza İbrahimova və başqa bəstəkarların mahnılarını seçirik. Rəşid Behbudovun repertuarına da müraciət edirik. Bacardığımız qədər mahnıları peşəkar səviyyədə ifa etməyə çalışırıq. Operettalara gəlincə, Üzeyir Hacıbəylinin iki məşhur əsərini - “Məşədi İbad” və “Arşın mal alan”ı modern quruluşda səhnələşdirmişik. Hər iki əsər tamaşaçılar tərəfindən anşlaqla qarşılanıb.

### “ANSAMBL ƏTRAFDAN İANƏLƏR, MALİYYƏ DƏSTƏYİ GÖZLƏYİR”

**● Bu cür ansamblların saxlanması üçün maliyyə lazımdır. Siz problemi necə həll edirsiniz?**

● Ansamblın heç bir gəliri yoxdur. Məqsədimiz Azərbaycanın mədəniyyət və incəsənətini Şimali Amerikada başqa millətlər arasında təbliğ etməkdir. Konsertlərdən əldə edilən gəlir ansamblın fəaliyyətinə yönəlir. Bütün iştirakçılarımız könüllüdürlər. Əlbəttə, büdcə sıxıntımız var. Ansambl ətrafdan ianələr, maliyyə dəstəyi gözləyir.

**● İanə verən və ya maliyyə dəstəyi göstərənlər olurmu?**

● Əsas yardım sponsorlar tərəfindən edilir. Onlar konsertlərimizə xüsusi olaraq qatılırlar. Bakıdan Diasporla İş üzrə Dövlət Komitəsi də bəzi tədbirlərimizə dəstək göstərir.

### “SONUNCU TAMAŞAMIZDA 70 NƏFƏR SƏHNƏYƏ ÇIXMIŞDI”

**● Ansamblın Kanadadan kənara qastrolları ilə bağlı planlarınız varmı?**

● Toronto, Ottava, Monrealda çıxışlarımız olub. Bu yerlərə avtomobillə getmək olur. Ansamblın üzvləri üçün də birlikdə bu şəhərlərə getmək rahatdır. İndi konsertlərimizi daha uzağa – ABŞ-yə aparmaq haqqında düşünürük. Bunun üçün də böyük büdcə lazımdır. Bizim ansamblı Kanada hökuməti qeydiyyatdan keçirib. Əgər Kanada dövlətindən qrantlar ala bilsək, ansamblın qastrollarını daha uzaqlarda təşkil edəcəyik. Kanada dövlətinin başqa millətlərin mədəniyyətini qorumaq kimi proqramları var. Amma bu maliyyəni əldə etməyin yolu bir qədər uzundur.



**● Ansamblın üzvlərinin sayı nə qədərdir?**

● Üzvlərin sayı sabit deyil, gəlib-gedənlər olur. Sonuncu tamaşamızda 70 nəfər səhnəyə çıxmışdı. Üzvlərə sərbəst şəkildə məşq keçir, musiqi nəzəriyyəsini, vokal dərslərini, rəqsləri öyrədirik. Bu məşqlərin hamısını pulsuz keçiririk. Qarşılıq olaraq onlar konsertlərimizdə təmənnasız çıxış edirlər. Bizim üçün əsasən gənclərlə işləmək maraqlıdır. Onları cəlb etməyə çalışırıq. Ansamblın yarısı gənclərdir. Amma bu, kifayət deyil, sıralarımıza daha çox gənci qatmağı hədəfləmişik.



**● “Arşın mal alan” operettasının təqdimatı haqqında sosial şəbəkələrdə, qruplarda elanlar tirajlandı. Sonradan rəylərdə tamaşanın böyük uğurla keçdiyini oxudum. İştirakçılar hamısı peşəkarlar idi?**

● Mən Təbrizdə yaşayanda ata-anamdan eşidərdim ki, “Arşın mal alan” hər il Təbriz səhnəsində oynanır və ya kinoteatrlarda göstərilir. İnsanlar haqqında bildikləri əsərə daha çox maraq göstərirlər. Biz “Arşın mal alan”ı 5-6 nəfərlə səhnələşdirməyə başladıq. Tədricən məşqləri sosial şəbəkələrdə paylaşdıqca insanlar maraqlanır və yaxınlaşıb həvəs göstərir, iştirak etmək istəyirdilər. Biz onların içərisindən vokal səsi olan, operettada oynamağı bacaran, aktyorluq qabiliyyəti olanları seçirdik. Nəticədə çox maraqlı tamaşa alındı. İndi planımız bu tamaşa ilə Vankuver və Kalqari səhnələrində çıxış etməkdir. Daha sonra bəstəkar mahnılarından ibarət konsertlərimiz davam edəcək, yeni layihələr və tamaşalar üzərində işləyəcəyik. Biz bu tədbirlərlə insanları bir yerə yığır və ənənələrimizi yaşatmağa çalışırıq.












ÜÇ ƏSRİN QƏZETİ
# Kaspi İDMAN
15 NOYABR ŞƏNBƏ 2025
www.kaspi.az




# CÜDOÇULARIMIZIN ƏR-RİYAD ZƏFƏRİ

**Cüdoçularımızın İslamiadadakı nəticələrini uğurlu hesab etmək olar. Ər-Riyada güclü heyətlə yollanan komandamız fərqli yarışlarda 2 qızıl, 2 gümüş və 5 bürünc olmaqla, 9 medal qazandılar, qarışıq komanda yarışında isə çempion oldular.**

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunları davam edir. Müxtəlif idman növlərində çoxsaylı idmançının çıxış etdiyi yarışlarda artıq bəzi növlərdə mübarizə başa çatıb. Azərbaycan idmançıları da bu mötəbər turnirdə uğurlu nəticələrlə diqqət çəkirlər. Xüsusilə, cüdo yarışlarında təmsilçilərimiz inamlı çıxışları ilə fərqləniblər.

**ƏR-RİYADA GÜCLÜ HEYƏTLƏ**

Azərbaycan cüdo yığması VI İslam Həmrəyliyi Oyunlarında ümumilikdə 12 idmançı ilə mübarizə apardı. Kişilər arasında ölkəmizi Ruslan Paşayev, Hidayət Heydərov, Elcan Hacıyev, Zelim Kotsoyev və Uşanqi Kokauri təmsil etdi. Qadınların yarışında isə Azərbaycan adından Könül Əliyeva, Gültac Məmmədəliyeva, Aydan Vəliyeva, Fidan Əlizadə, Südabə Ağayeva, Aytac Qardaşxanlı və Günel Həsənli çıxış etdilər.

Siyahıdan göründüyü kimi, komandamız Ər-Riyada titullu idmançılarla, güclü və balanslı heyətlə yollanmışdı. İdmançılarımız etimadı doğruldaraq, tatamidə inamlı çıxışları və qazanılan nəticələrlə idmansevərləri sevindirməyi bacardılar.



## Hər biri fəxri kürsüdə

Kişilər arasında yarışlarda idmançılarımız parlaq nəticə ilə diqqət çəkdilər. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, tatamiyə çıxan bütün idmançılarımız İslam Oyunlarını medalla başa vurdular. Paris Olimpiadasının qalibi Hidayət Heydərov əla performans göstərərək formasını bərpa etməkdə olduğunu sübut etdi. 73 kq çəki dərəcəsində yarışan idmançımız finala qədər bütün rəqiblərini üstələdi. Həlledici qarşılaşmada o, özbəkistanlı Şaxram Ahadovu məğlub edərək qızıl medal qazandı. Bu, Hidayətin ikinci analoji uğuru kimi tarixə düşdü. Daha əvvəl, 2017-ci ildə Bakıda keçirilən oyunlarda da Heydərov fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı. Komandanın digər üzvlərindən Zelim Kotsoyev yalnız finalda məğlub olaraq, gümüş medalla kifayətləndi. Elcan Hacıyev və Uşanqi Kokauri isə bürünc medal uğrunda görüşləri qazanaraq yarışları üçüncü pillədə başa vurublar. Kişi cüdoçularımız İslamiadanı bir qızıl, bir gümüş və üç bürünc medalla başa vurdular.

## Uğursuzluğa son qoyan qadınlar

Qadın cüdoçularımız da Ər-Riyyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarında ölkəmizi layiqincə təmsil etdilər. Son beynəlxalq yarışlarda medal qazanmaqda çətinlik çəkən qadın komandamız bu dəfə uğursuz seriyaya son qoyaraq diqqətəlayiq nəticə göstərdilər. Südabə Ağayeva bütün rəqiblərinə qalib gəlib yarışın qızıl medalını qazandı. Könül Əliyeva finalda türkiyəli Tuğçe Bederlə gərgin mübarizədə uduzaraq gümüş medalla kifayətləndi, lakin onun çıxışı da yüksək qiymətləndirilməlidir. Aydan Vəliyeva və Aytac Qardaşxanlı isə bürünc medal uğrunda görüşlərdə qalib gəlməklə qadınlar arasında ümumi medal sayını artırdılar. Bu nəticə ilə qadın cüdoçularımız uzun fasilədən sonra beynəlxalq arenada komanda şəklində uğurlu çıxış nümayiş etdirdilər.



Hidayət Heydərov



Südabə Ağayeva



Zelim Kotsoyev

## Qarışıq komanda yarışında çempionluq

Azərbaycanın cüdo millisi də VI İslam Həmrəyliyi Oyunlarının qalibi oldu. Yığmamız qarışıq komanda yarışının finalında Özbəkistan kollektivi ilə qarşılaşdı. Görüş Azərbaycan millisinin 4:0 hesablı qələbəsi ilə yekunlaşdı. Mübarizəyə 1/4 finaldan başlayan seçməmiz əvvəlcə Səudiyyə Ərəbistanı cüdoçularını 4:0, ardınca yarımfinalda Qazaxıstanı 4:1 hesabı ilə üstələmişdi.

Qarışıq komanda yarışında ölkəmizi Fidan Əlizadə, Hidayət Heydərov, Ruslan Paşayev, Aytac Qardaşxanlı, Elcan Hacıyev, Günel Həsənli, Uşanqi Kokauri, Zelim Kotsoyev, Aydan Vəliyeva və Südabə Ağayeva təmsil etdilər.

Ümumilikdə cüdoçularımızın İslamiadadakı nəticələrini uğurlu hesab etmək olar. Ər-Riyada güclü heyətlə yollanan komandamız fərqi yarışlarda 2 qızıl, 2 gümüş və 5 bürünc olmaqla, 9 medal qazandılar, qarışıq komanda yarışında isə çempion oldular. Düzdür, fərdi yarışlarda nəticəni daha da yaxşılaşdırmaq mümkün idi. Xüsusən, İslam Paşayev və Elcan Hacıyevin bürünc medalla kifayətlənməsi gözlənilməz oldu. Onların hər ikisinin gücü və potensialı daha yaxşısına imkan verir. Eyni zamanda, qadın cüdoçularımızın uğurlu nəticələri gələcəyə ümid verdi. Xüsusilə, Südabə Ağayevanın son turnirlərdə ardıcıl 4 qızıl medal qazanması vurğulanmalıdır.

İslamiada bir çox azarkeşlərə rəqabətin zəif olduğu yarış kimi görünə bilər. Lakin nəzərə almaq lazımdır ki, digər yığmalar da Azərbaycan kimi yarışa güclü idmançılarla qatılmışdılar. İdmançılarımızın rəqibləri arasında Olimpiya medalçıları, qitə və dünya çempionatlarının mükafatçılarının olması yarışda ciddi rəqabətin olduğunu deməyə əsas verir. Bu isə əldə edilən medalların əhəmiyyətinin böyük olduğunu göstərir.